# BUZLAQLAR UĞRUNDA QRENLANDİYA SAVAŞI

Trampın Qrenlandiya istəyi təsadüfi ritorika deyil. O, ənənəvi diplomatik çərçivələrdən kənara çıxmağa da hazırdır.

"Politico" nəşri öz mənbələrinə istinadən yazıb ki, ABŞ 2026-cı ilin əvvəlində Qrenlandiyaya nəzarəti ələ keçirə bilər. Bəziləri isə Vaşinqtonun qarşıdakı aylarda siyasi cəhətdən əlverişli bir məqamdan istifadə etməyə çalışacağını iddia edirlər. Bildirilib ki, bu, ABŞ-nin ara seçkiləri və 4 iyulda qeyd olunacaq müstəqilliyinin 250 illiyi ərəfəsində baş verə bilər.

SƏHİFƏ 5-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

10 YANVAR ŞƏNBƏ 2026 № 01 (4252) Qiyməti - 60 qəpik www.kaspi.az



## AZƏRBAYCANIN ARTAN ENERJİ GÜCÜ

Perspektivdə Xəzər dənizinin böyük potensialından da yararlanmaq hədəflər arasındadır. Beynəlxalq qiymətləndirmələrə görə, dənizin Azərbaycan sektorundakı külək potensialı 157 giqavat səviyyəsindədir.

SƏHİFƏ 2-də



## ETİBARLI VƏ RAHAT ÖDƏNİŞ ÜSULU

QR ödənişlərin əsas üstünlüklərindən biri odur ki, əməliyyat zamanı PIN-kod, kart məlumatı və digər şəxsi məlumatların daxil edilməsinə ehtiyac qalmır. İstifadəçi sadəcə POS terminala yaxınlaşıb, saniyələr içində ödənişi icra edir.

SƏHİFƏ 12-də



## "ADƏTƏN, İNSANLARLA QƏFİL AYRILIRAM..."

"Moskva göz yaşlarına inanmır" filminin Katerinası, Rusiyanın Xalq artisti Vera Alentova tamaşaçıların yaddaşında əsasən elə bu obrazı ilə qaldı. O, 60 il teatrda çalışdı və ömrünün sonuna kimi sənətinə sadiq qaldı.

SƏHİFƏ 15-də

### PREZİDENTDƏN YERLİ TELEKANALLARA MARAQLI MÜSAHİBƏ

# PRAQMATİK VƏ BƏRABƏRHÜQUQLU ƏMƏKDAŞLIQ



Prezident İlham Əliyevin Ağ Evdə həmkarı Donald Trampla apardığı müzakirələrin nəticəsi olaraq Bakı ilə Vaşinqton arasında əsən sərt ruzigarlar bir anda yerini praqmatik və bərabərhüquqlu əməkdaşlığa verdi.

**BAŞA ÇATAN İL TARİXİ İL SAYILA BİLƏR**

İki ölkə arasındakı münasibətlərə baxış Prezident İlham Əliyevin yanvarın 5-də yerli telekanallara son müsahibəsində bir daha ətraflı şəkildə ortaya qoyulub. Prezident qeyd edib ki, Azərbaycan-ABŞ münasibətləri kontekstində də 2025-ci il tarixi il sayıla bilər.

**ZƏNGƏZUR DƏHLİZİ İLƏ BAĞLI ƏMİNLİK**

"Zəngəzur dəhlizinin açılması artıq Amerika Prezidenti tərəfindən də təsdiqlənmişdir. Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir".

SƏHİFƏ 3-də

### Dostluq, itki və gözlənilməyən zənglər

# "GƏNC KAMALA DEYİLƏCƏK SÖZLƏRİM VAR"




Zaman hər kəsdən hesabat istəyir. Amma elə adamlar var ki, zamanın özü onlardan hesabat alır. Filologiya elmləri doktoru, professor, Xalq yazıçısı Kamal Abdulla məhz bu nadir söz adamlarındandır. Onun yaradıcılığı konkret bir ədəbi mərhələnin çərçivəsinə sığmır. Alim də olub, yazıçı da, dramaturq da, düşüncə adamı da...

SƏHİFƏ 8-9-da



## RUSİYA ÖHDƏLİKLƏRİNİN İCRASINDAN YAYINIR

Rusiya təyyarənin vurulması faktı ilə bağlı təəccüb doğuran davranışları davam etdirir. Prezidentin dedikləri İstintaq Komitəsinin rəhbəri Bastrıkinin göndərdiyi məktubda əksini tapan məlumatlarla ziddiyyət təşkil edir.

SƏHİFƏ 4-də



## AVTOMOBİLLƏR ARTIR, BAKI NƏFƏS ALA BİLMİR

Bakıda tıxac və parkinq problemi dərinləşib. Şəhərin mövcud infrastrukturu bu yükü daşımaqda çətinlik çəkir. Çıxış yolu kimi yol-nəqliyyat sisteminin idarə edilməsi və ictimai nəqliyyata üstünlük verilməsi göstərilir.

SƏHİFƏ 6-da



## AZARKEŞLƏRİN SEVİMLİSİNƏ ÇEVRİLƏN QOLKİPER

Polşalı Mateuş Koxalski "Qarabağ"a transfer olunduğu ilk günlərdən etimadı doğrultmağı bacarıb. Mateuş çox qısa müddətdə əsas heyətin dəyişməz üzvünə çevrilib və sabit, etibarlı oyunu ilə seçilib.

SƏHİFƏ 16-da



**Qeyri-neft-qaz ixracı artıb**

SƏHİFƏ 2-də



**Bakının səssiz yükü**

SƏHİFƏ 7-də



**MİS-lər də MMC olacaq**

SƏHİFƏ 11-də



**Xəzərin durumu balıq bazarını silkələyir**

SƏHİFƏ 14-də



**Depressiya, yuxusuzluq və konsentrasiya**

SƏHİFƏ 10-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## İnflyasiyanın yavaşlayacağı proqnozlaşdırılır

BMT Azərbaycanda 2026-cı il üçün inflyasiyanı 4%, 2027-ci il üçün isə 3,5% səviyyəsində proqnozlaşdırır. Bu barədə “Report” BMT-nin yenilənmiş məlumatlarına istinadən xəbər verir. BMT-nin qiymətləndirmələrinə görə, 2025-ci ildə Azərbaycanda inflyasiya 5,6% təşkil edib.

İqtisadiyyat Nazirliyinin proqnozlarına əsasən, ölkədə orta illik inflyasiya 2026-cı ildə 4,8%, 2027-ci ildə isə 4,5% təşkil edəcək. Mərkəzi Bankın son proqnozlarına (2025-ci ilin oktyabr ayı) görə, cari ildə illik inflyasiya təxminən 5,7% olacaq. Niderlandın ən böyük bank qrupu olan “ING Group” Azərbaycanda orta illik inflyasiyanı 2026-cı ildə 5,3%, 2027-ci ildə isə 8,9% səviyyəsində proqnozlaşdırır. Dünya Bankı 2025-2026-cı illərdə Azərbaycanda orta illik inflyasiyanı 2,3% səviyyəsində gözləyir.

Asiya İnkişaf Bankı Azərbaycanda 2026-cı ildə orta illik inflyasiyanı 3,5% səviyyəsində proqnozlaşdırır.



## Qeyri-neft-qaz ixracı artıb

2025-ci ildə Azərbaycanın qeyri-neft-qaz sektoru üzrə ixracının dəyəri 2024-cü illə müqayisədə 8,5% artaraq 3,6 milyard ABŞ dolları təşkil edib. “Report” bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə istinadən xəbər verir.

Məlumata görə, o cümlədən son bir ildə ölkənin yeyinti məhsullarının ixrac dəyəri 18,4% artaraq 1,2 milyard ABŞ dolları olub. Bundan başqa, hesabat dövründə şəkərin ixrac dəyəri 57,4%, meyvə-tərəvəzin ixrac dəyəri 27,4%, alüminium və onlardan hazırlanan məmulatların ixrac dəyəri isə 24,2%, pambıq ipliyin ixrac dəyəri 19,3%, kimya sənayesi məhsullarının ixrac dəyəri 8 %, bitki və heyvan mənşəli piy-yağın ixrac dəyəri isə 2% artıb. İl ərzində aqrar məhsulların ixrac dəyəri 26,7% artaraq bir milyard ABŞ dolları, aqrar-sənaye məhsullarının ixracın dəyəri 314,7 milyon ABŞ dolları, bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixrac dəyəri isə 18,9% artaraq 1,3 milyard ABŞ dolları təşkil edib.

# AZƏRBAYCANIN ARTAN ENERJİ GÜCÜ



Perspektivdə Xəzər dənizinin böyük potensialından da yararlanmaq hədəflər arasındadır. Beynəlxalq qiymətləndirmələrə görə, dənizin Azərbaycan sektorundakı külək potensialı 157 giqavat səviyyəsindədir.

Azərbaycan son illərdə bərpa olunan enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirir. Enerji təminatında istər ənənəvi, istərsə də yaşıl enerji kimi yeni mənbələrin paralel şəkildə inkişafı prioritet elan olunub.

Bu siyasət özünü həyata keçirilən layihələrin miqyasında da büruzə verməkdədir. Tək onu xatırlatmaq kifayətdir ki, istər bərpaolunan, istərsə də ənənəvi enerji mənbələrini əhatə edən energetika proqramının miqyası ildən-ilə artır. Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artıb. Bu gün Azərbaycanın generasiya gücü təxminən 10 min meqavata bərabərdir. Müstəqillik illərinə nəzər yetirsək, bu göstərici tarixi rekord sayılır.

### “XIZI-ABŞERON” KÜLƏK ELEKTRİK STANSİYASININ AÇILIŞI

Bugünlərdə Azərbaycanın yaşıl enerji mənbələri gündəliyində mühüm yer tutan və Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi reallaşıb. Bu tədbirdə çıxış edən Prezident İlham Əliyev ölkəmizin enerji siyasətinin prioritetlərini açıqlayıb. Dövlət başçısı qeyd edib ki, bu, “ACWA Power” tərəfindən Azərbaycanda inşa edilmiş birinci bərpaolunan elektrik stansiyasıdır, ancaq sonuncu deyil. Şirkətin böyük planları var və Azərbaycan dövləti bu planları tam dəstəkləyir. Dövlət başçısı vurğulayıb ki, bundan sonra bərpaolunan enerji növlərinin yaradılması ilə daha çox xarici investorlar məşğul olacaqlar.

## “Bir daha əmin olduq ki...”



Prezident keçən il Mingəçevirdə yeni elektrik stansiyasının açılışına da toxunub: “Bir daha əmin olduq ki, Azərbaycanda bu iki proses, yəni ənənəvi generasiya gücləri və bərpaolunan generasiya gücləri paralel şəkildə aparılmalıdır. Ancaq o təqdirdə biz istədiyimiz nəticəyə nail ola bilərik. Keçən il Mingəçevirdə istismara verilmiş ənənəvi elektrik stansiyasının generasiya gücü təxminən 2000 meqavata bərabərdir və bu gün Azərbaycan enerji təminatı, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən özünü çox rahat hiss edir. Bu yaxınlarda 230 meqavat gücündə Günəş elektrik stansiyası istismara verilmişdir. Bu gün 240 meqavat gücündə külək elektrik stansiyası, işğaldan azad edilmiş ərazilərdə - Cəbrayıl rayonunda hazırda üç Günəş elektrik stansiyası inşa edilir. Bu üç stansiyanın ümumi potensialı 340 meqavatdır”.

### BİLƏSUVAR, NEFTÇALA, NAXÇIVAN...

Ölkəmizin bərpa olunan enerji növlərinə əsaslanan elektrik stansiyalarının inşası planları qeyd olunan faktlarla da yekunlaşmır. Növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Həmçinin perspektivdə Xəzər dənizinin böyük potensialından da yararlanmaq hədəflər arasındadır. Beynəlxalq qiymətləndirmələrə görə, Xəzər dənizinin Azərbaycan sektorundakı külək potensialı 157 giqavat səviyyəsindədir.

## Batareya Enerji Saxlanc Sistemi yaradılır

Gələcək planlar bununla da yekunlaşmır. Azərbaycan artan enerji potensialı fonunda bu enerjini saxlamaq üçün infrastruktur yaratmaq barədə də düşünür. Bu məqsədlə ölkəmizdə tarixdə ilk dəfə olaraq Batareya Enerji Saxlanc Sistemi yaradılır. Sözügedən məsələ ilə bağlı birinci layihə 250 meqavatlıqdır. İş icrasını isə “AzərEnerji” öz vəsaiti hesabına reallaşdırır. Hazırda imzalanmış razılaşmalara əsasən, 2030-cu ilə qədər altı, 2032-ci ilə qədər isə, ümumiyyətlə, səkkiz giqavat gücündə külək və Günəş elektrik stansiyaları inşa ediləcək.

### 40-A YAXIN KİÇİK SU ELEKTRİK STANSİYASI İNŞA OLUNUB

Bu proses işğaldan azad edilmiş ərazilərdə də geniş vüsət alıb. Son beş il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su elektrik stansiyası inşa olunub. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur. Artıq azad edilmiş ərazilərin potensial su elektrik stansiyalarının xəritəsi də tərtib edilib. Gələcəkdə bölgədə təqribən 500-600 meqavat gücündə kiçik su elektrik stansiyalarının inşası planlaşdırılır. Vahid proqram halında həyata keçirilən bu işlər ölkənin dayanıqlı enerji təminatı məqsədini reallaşdırmaqla yanaşı, Azərbaycanı tərəfdaşları üçün potensial ixracatçıya da çevirəcək.

# PRAQMATİK VƏ BƏRABƏRHÜQUQLU ƏMƏKDAŞLIQ



Prezident İlham Əliyevin Ağ Evdə həmkarı Donald Trampla apardığı müzakirələrin nəticəsi olaraq Bakı ilə Vaşinqton arasında əsən sərt ruzigarlar bir anda yerini praqmatik və bərabərhüquqlu əməkdaşlığa verdi. 907-ci düzəliş faktiki olaraq aradan qaldırıldı, ABŞ–Azərbaycan Strateji İşçi Qrupunun yaradılması barədə qərar qəbul edildi.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın 2020-ci ildə əldə etdiyi tarixi qələbə keçən müddət ərzində qlobal siyasi müstəvidə özünün nəticələrini verməkdə və təsdiqini tapmaqdadır. Biz bunu son bir ilə yaxın müddətdə Azərbaycan-ABŞ əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinin timsalında bir daha müşahidə edirik. Hansı ki, bu dövr həm də sülhə keçid dövrü kimi dəyərləndirilir.

Məhz keçən ilin avqust ayında Vaşinqtonda Prezident Donald Trampın təşəbbüsü və iştirakı ilə gerçəkləşdirilən görüşlər, əldə edilən razılaşmalar Azərbaycan və Ermənistan arasında sülhə keçid dövründə yeni mərhələnin başlanğıcı oldu. Prezident İlham Əliyevin Ağ Evdə həmkarı Donald Trampla apardığı müzakirələrin nəticəsi olaraq Bakı ilə Vaşinqton arasında əsən sərt ruzigarlar bir anda yerini praqmatik və bərabərhüquqlu əməkdaşlığa verdi. 907-ci düzəliş faktiki olaraq aradan qaldırıldı, ABŞ-Azərbaycan Strateji İşçi Qrupunun yaradılması barədə qərar qəbul edildi. Donald Tramp administrasiyasının praqmatik, milli maraqlara əsaslanan siyasət yürütməsi nəticəsində illərlə düyünə düşmüş və Bakının əsas tələblərindən biri sayılan Zəngəzur dəhlizinin açılması barədə razılıq əldə olundu, bu təşəbbüs Ağ Ev rəhbəri tərəfindən də təsdiqləndi.

### "ŞÜBHƏ YOXDUR Kİ, ZƏNGƏZUR DƏHLİZİ AÇILACAQ"

İki ölkə arasındakı münasibətlərə baxış Prezident İlham Əliyevin yanvarın 5-də yerli telekanallara son müsahibəsində bir daha ətraflı şəkildə ortaya qoyulub. Prezident qeyd edib ki, Azərbaycan-ABŞ münasibətləri kontekstində də 2025-ci il tarixi il sayıla bilər: "Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər. Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Halbuki hələ Konqres bunu rəsmən aradan qaldırmalıdır. Amma xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır.

Bundan başqa, Amerika ilə Azərbaycan arasında strateji işçi qrupunun yaradılması sənədi imzalanmışdır. Bu işçi qrupunun əsas fəaliyyəti strateji tərəfdaşlıq xartiyasını hazırlamaqdır və artıq bu istiqamətdə də fəal iş başlamışdır. Təbii ki, uzun illər arzuladığımız Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılması da məhz həmin gün reallaşdı. Yəni Zəngəzur dəhlizinin açılması artıq Amerika Prezidenti tərəfindən də təsdiqlənmişdir. Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir. Beləliklə, bizə Ermənistanla normallaşma prosesi çərçivəsində lazım olan bütün məsələlər istədiyimiz kimi öz həllini tapdı. Əlbəttə, Ermənistanla Azərbaycan arasında paraflanmış sülh sazişinin əhəmiyyəti, imzaladığımız birgə Bəyannamə təbii ki, göz önündədir. Prezident Tramp şahid qismində bu Bəyannaməyə öz imzasını atdı".

## ÜMİDLƏR BÖYÜK, NƏTİCƏLƏR TƏSİRLİDİR



Prezident İlham Əliyev qeyd edib ki, bu gün çox fəal diplomatik hərəkət var. Azərbaycanla ABŞ arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir: "Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir".

### İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRDƏ QARA LƏKƏ

Təbii ki, indiki məqamda ikitərəfli münasibətlərdə müşahidə olunan müsbət dinamikaya bəzi məqamlar da kölgə salmaqdadır. Bunlardan ən əsası 1992-ci ildə ölkəmizə qarşı ədalətsiz bir formada, erməni lobbisinin təsiri və sifarişi ilə qəbul edilmiş 907-ci düzəlişin hələ də Konqres tərəfindən tam ləğv edilməməsidir. Hansı ki, reallıqdan uzaq iddialarla zamanında qəbul edilən bu sənəd Azərbaycanı uzun illər ehtiyacı olduğu anlarda ABŞ-nin maliyyə yardımlarından məhrum etmişdi. İndi ölkəmiz qalib dövlət statusuna, güclü iqtisadiyyata, müstəqil maliyyə imkanlarına malik olmasına baxmayaraq, sözügedən düzəlişin tamamilə ləğvi ikitərəfli münasibətlərin daha da gücləndirilməsi fonunda simvolik mahiyyət daşıya bilər.

### BAKININ KONQRESDƏN GÖZLƏNTİLƏRİ

Məlum məsələni Prezident İlham Əliyev də son müsahibəsində xüsusi vurğulayıb. Dövlət başçısı qeyd edib ki, vaxtilə bu düzəlişi qəbul edənlərin bir çoxu artıq həyatda deyil, amma həyatda olanlar arasında çox maraqlı adlar da var: "Onları siz tapa bilərsiniz, amma bir ad çəkməklə kifayətlənəcəyəm, o da ovaxtkı keçmiş senator, ondan sonra vitse-prezident, ondan sonra Prezident Co Bayden. Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmişdir. Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim, həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə deyildi. Obama-Bayden administrasiyası ilə əlaqələr kifayət qədər məsafəli idi, Bayden-Blinken administrasiyası isə bizim əlaqələrimizi faktiki olaraq böhrana salmışdı".

Prezident bir daha qeyd edib ki, Tramp administrasiyasının hakimiyyətə gəlişi ilə vəziyyət tamamilə dəyişdi. "Qeyd etdiyim kimi, indi Amerika-Azərbaycan münasibətləri yeni səviyyəyə qalxmışdır və əlbəttə, biz gözləyirik ki, Konqres bu ədalətsiz, keçmişdən qalan, bu gün tamamilə absurd sayılan düzəlişi aradan qaldıracaq", - Prezident bildirib.

Beləliklə, Bakının bundan sonrakı mərhələdə Vaşinqtondan gözləntiləri bəllidir. Müşahidə olunan bu dinamika qarşılıqlı münasibətlərin daha da dərinləşdiriləcəyindən xəbər verir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# RUSİYA ÖHDƏLİKLƏRİNİN İCRASINDAN YAYINIR

Rusiya AZAL-a məxsus təyyarənin vurulması faktı ilə bağlı qeyri-müəyyən və təəccüb doğuran davranışları davam etdirir. Təyyarənin vurulması ilə bağlı Prezident Putinin dedikləri Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkinin göndərdiyi məktubda əksini tapan məlumatlarla ziddiyyət təşkil edir.




RASİM MƏZAHİROĞLU

Şimal qonşumuz Rusiyanın hava hücumundan müdafiə sistemləri tərəfindən 2024-cü ilin dekabrında Qrozını səmasında vurulan AZAL-a məxsus "Embraer E190" təyyarəsi ilə bağlı davranışları təəccüb doğurmaqda davam edir. İş o yerə çatıb ki, hətta Prezidentin dedikləri məmurlar tərəfindən nümayişkaranə şəkildə təkzib edilir.

### AZƏRBAYCAN MÜVAFİQ ADDIMLARIN ATILACAĞINI GÖZLƏDİ

İnsidentdən az sonra Azərbaycan mülki təyyarənin məhz rus ordusunun hava hücumundan müdafiə sistemləri tərəfindən açılan atəş nəticəsində qəzaya uğradığını bəyan etsə də, qarşı tərəf hər vəchlə bunu təkzib etməyə, hadisənin əsl səbəblərini gizlətməyə can atırdı. Ancaq necə deyərlər, cidanı çuvalda gizlətmək mümkün deyil. Ortaya qoyulan təkzibedilməz sübut və faktlar nəhayət, Rusiyanı ən yüksək səviyyədə günahını etiraf etməyə vadar etdi. Ötən ilin oktyabr ayında Düşənbədə Prezident İlham Əliyevlə görüşündə Rusiya rəhbəri Vladimir Putin təyyarə qəzası ilə bağlı hər şeyin Azərbaycanın dediyi kimi olduğunu təsdiqlədi. O etiraf etdi ki, Rusiyanın hava müdafiə sistemi tərəfindən buraxılan iki raket təyyarənin təqribən 10 metrlik məsafəsində partlayıb və hava layneri bu səbəbdən zədələnib. Bundan əlavə, Putin açıq mətnlə bildirdi: "Sözsüz ki, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək". Azərbaycan Rusiya tərəfindən ən yüksək səviyyədə verilən bu vəddən razı qaldı, müvafiq addımların atılacağını gözlədi. Amma əvəzində bəlli oldu ki, Rusiyada Prezidentin mövqeyi belə tabelikdə olan məmur tərəfindən çox rahatlıqla inkar edilir. Bunu Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkinin AZAL-a məxsus təyyarə qəzası ilə bağlı cinayət işinə xitam verilməsini ehtiva edən məktubu bir daha təsdiqlədi.

## CİDDİ TƏƏCCÜB DOĞURAN BƏZİ MƏQAMLARLA DOLU MƏKTUB

Məktubda AZAL təyyarəsinin hava şəraitinə görə marşrutunu dəyişdirdiyi, qəzanın da buna görə baş verdiyi iddia edilir. Putinin dediklərindən fərqli olaraq, Bastrıkinin məktubunda təyyarənin açılan atəş nəticəsində qəzaya uğramasına ümumiyyətlə toxunulmur. Hava şəraiti əsas gətirilir və bunun əsasında da cinayət işinə xitam verildiyi vurğulanır. Qeyd edək ki, Xarici işlər naziri Ceyhun Bayramov da ötən ilin yekunlarına həsr olunmuş mətbuat konfransında Rusiya İstintaq Komitəsinin Bakıya təəccüb doğuran məktub göndərdiyini diqqətə çatdırıb: "Məktubda yumşaq desək, ciddi təəccüb doğuran bəzi məqamlar diqqət çəkirdi. Məqamlardan biri ondan ibarədir ki, cənab Bastrıkin bu cinayət işinə xitam verilməsi barədə məlumatı bölüşüb. Bu, ciddi suallar yaradır və təəccüb doğurur. Həmin məktuba Azərbaycanın müvafiq qurumu tərəfindən təfsilatlı mövqe ortaya qoyulub və Rusiya tərəfinə çatdırılıb... Ən azından bizim gözləntimiz iki ölkə lideri arasında aparılan danışıqlara uyğun olaraq, bu məsələ ilə bağlı araşdırmanın başa çatdırılması, hüquqi qiymətin verilməsi, kompensasiyaların ödənməsidir". Lakin cinayət işinə xitam verilməsi o deməkdir ki, Rusiya öhdəliklərinin icrasından yayınır.


Ceyhun Bayramov



## BASTRIKİN BEYNƏLXALQ KOMİSSİYANIN RƏYİNİ DƏ TƏHRİF EDİR

Ümumilikdə Bastrıkin təkcə Putini yox, eyni zamanda Rusiyanın özünün də təmsil olunduğu təyyarə qəzasının səbəblərini araşdıran beynəlxalq komissiyanın mövqeyini, konkret rəyini təhrif edir. Komissiyada yer alan Azərbaycan, Rusiya, Qazaxıstan, Braziliya və Beynəlxalq Mülki Aviasiya Təşkilatı ekspertlərinin ümumi rəyinə əsasən, təyyarə idarəetməni hər hansı texniki nasazlıq səbəbindən deyil, xarici müdaxilə nəticəsində itirərək qəzaya uğrayıb. Bu da təyyarənin raketlə vurulduğunu bir daha təsdiq edir. Amma nədənsə cənab Bastrıkin təkcə Putinin yox, heç beynəlxalq komissiyanın da rəyini nəzərə almaq istəmir və ya belə bir görüntü yaradır.

Təyyarə qəzası ilə bağlı yaranmış vəziyyət haqlı olaraq Azərbaycan cəmiyyətinin etirazına, qəzəb və hiddətinə səbəb olur. Azərbaycan Milli QHT Forumunun Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimova ünvanladığı açıq məktubda da bunu bir daha sezmək olar. Məktubda qeyd edilir ki, bütün fotofakt və videosübutları heçə sayaraq təyyarənin guya əlverişsiz hava şəraiti səbəbindən Qroznıya eniş edə bilmədiyini iddia etmək hadisədə ölən və yaralanan günahsız insanların qanını batırmaq, onlara atəş açanları alqışlamaq deməkdir: "Bastrıkinin ört-basdır etməyə çalışdığı qanlı insident Azərbaycan xalqı üçün milli qürur məsələsidir. Biz susmayacağıq. Rusiya tərəfi Azərbaycandan üzr istəməklə, məsələni bağladığını düşünürsə, kökündən yanılır. Ortada olan qanlı cinayət faktı etiraf edilməli, günahkarların hər biri cinayət məsuliyyətinə cəlb olunmalı və Azərbaycan dövlətinə, zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödənilməlidir. Beynəlxalq təcrübə və normal insani davranış yalnız bunu tələb edir".

Amma görünən odur ki, Rusiya Putin səviyyəsində elan edilmiş öhdəliklərindən yayınmağa çalışır, sözü ilə əməli düz gəlməyən ölkə olduğunu növbəti dəfə nümayiş etdirməkdən çəkinmir. Bununla Rusiya ölkəmizlə münasibətlərini yenə gərgin bir məcraya keçirir. Halbuki, bu vəziyyətdən uduzan daha çox şimal qonşumuzun özüdür. Lakin Rusiya rəsmiləri hələ də bunun fərqinə varmaq istəmirlər. Azərbaycan isə ədalət tələb edən mövqeyindən, Rusiyanın insidentlə bağlı öhdəliklərinin icrasına nail olmamış yolundan dönən deyil.


Aleksandr Bastrıkin

# BUZLAQLAR UĞRUNDA QRENLANDİYA SAVAŞI

Əksəriyyət hesab edir ki, Trampın Qrenlandiya istəyi təsadüfi siyasi ritorika deyil. ABŞ Prezidenti "America First" doktrinasını həyata keçirmək üçün ənənəvi diplomatik çərçivələrdən kənara çıxmağa da hazırdır.



AZƏR NURİYEV



Qrenlandiya məsələsinin bu il də dünya gündəminin əsas mövzularından biri olacağı şəksizdir. ABŞ Prezidenti Donald Trampın ard-arda səslənən bəyanatları bu qənaəti  gücləndirir. O, yeni ilin ilk günlərində növbəti dəfə bəyan edib ki, ABŞ-nin Qrenlandiyaya nəzarət etməsinə ehtiyac var. Ardınca da adanın "Rusiya və Çin gəmiləri" ilə əhatə olunduğunu qeyd edib. Trampın bu bəyanatından sonra "Politico" nəşri öz mənbələrinə istinadən yazıb ki, ABŞ 2026-cı ilin əvvəlində Qrenlandiyaya nəzarəti ələ keçirə bilər. Bəziləri isə Vaşinqtonun qarşıdakı aylarda siyasi cəhətdən əlverişli bir məqamdan istifadə etməyə çalışacağını iddia edirlər. Bildirilib ki, bu, ABŞ-nin ara seçkiləri və 4 iyulda qeyd olunacaq müstəqilliyinin 250 illiyi ərəfəsində baş verə bilər. Bu istəyin Venesueladakı kimi hərbi əməliyyat deyil, genişmiqyaslı siyasi təsir kampaniyası ilə həll olunacağı iddia edilir. Ümumiyyətlə, ABŞ-nin Qrenlandiya ilə bağlı niyyətlərinin real və ciddi olduğu vurğulanır.

### ÖZÜNÜİDARƏETMƏ QORUNUR, MÜDAFİƏ VAŞİNQTONA HƏVALƏ EDİLİR

"The Economist"in məlumatına görə, Tramp administrasiyası Qrenlandiyada əhalinin həyat səviyyəsini yaxşılaşdıra biləcək müqavilə layihəsi üzərində işləyir. Məlumata görə, ABŞ rəsmiləri ada sakinlərinə Mikroneziya, Marşal adaları və Palau kimi kiçik ölkələrdə tətbiq edilən Azad Birlik Sazişi təklif edəcəklər. Belə müqavilələrə əsasən, ABŞ həmin ölkələrə maliyyə dəstəyi verir. Bunun qarşılığında daxili özünüidarəetmə qorunur, müdafiə məsələləri isə Vaşinqtona həvalə edilir. Tramp Administrasiyasının Qrenlandiya siyasəti iki məqsəd güdür: Danimarka və Qrenlandiya hakimiyyətləri arasındakı fikir ayrılıqlarını daha da şiddətləndirmək və birbaşa yerli hökumət orqanları ilə razılığa gəlmək. Nəşr qeyd edib ki, artıq ABŞ hərbi bazası Qrenlandiyada mövcuddur. Amma bazadakı əsgər sayının əhəmiyyətli dərəcədə artırılması üçün Kopenhagenin təsdiqi tələb olunur. Qrenlandiya hakimiyyəti bu məsələ ilə bağlı ABŞ ilə birbaşa danışıqlar təklifini rədd edib.

## HÜQUQİ BAXIMDAN DANİMARKAYA AİDDİR

Hüquqi baxımdan Qrenlandiya Danimarkaya aiddir və krallıq dəfələrlə bəyan edib ki, ABŞ təhdidlərini dayandırmalıdır. Baş nazir Mette Frederiksen deyib ki, Vaşinqtonun adaya nəzarəti ələ keçirməsinin heç bir anlamı yoxdur: "ABŞ-nin krallığın üç subyektindən (Danimarka, Qrenlandiya və Farer adaları) heç birini ilhaq etmək hüququ yoxdur. Danimarka Krallığı və buna görə Qrenlandiya da NATO-nun bir hissəsidir, alyansın təhlükəsizlik zamanətləri altındadır". Müşahidəçilər hesab edirlər ki, Danimarkanın suverenliyinə yönəlmiş istənilən addım NATO daxilində ciddi böhran yarada bilər. Bu səbəbdən ABŞ hələlik açıq güc tətbiqindən uzaq durur. Yerli əhalinin reaksiyasına gəldikdə, onlar Danimarka ilə münasibətlərdən ümumilikdə razıdırlar. Buradakı sosial rifah səviyyəsi, muxtariyyət imkanları və idarəetmə modeli ciddi narazılıq yaratmır.

Bəziləri hesab edir ki, Danimarka üçün Qrenlandiya o qədər də önəmli deyil. Bu səbəbdəndir ki, qrenlandiyalılara istənilən vaxt müstəqillik referendumu keçirmək hüququ verib. Danimarka hər il adanın büdcəsini subbsidiyalaşdırmağa 77 milyon dollar ayırır. Faktiki olaraq bu pulun xərclənməsinə nəzarət etmir və əvəzində də nəsə almır.



Donald Tramp



Mette Frederiksen

## ABŞ ƏVVƏLLƏR DƏ İKİ DƏFƏ ADANI PULLA ALMAQ İSTƏYİB

Yeri gəlmişkən, Qrenlandiyanın kimə məxsusluğu ilə bağlı ilk münaqişə ötən əsrin 30-cu illərinin əvvəllərində Danimarka və Norveç arasında baş verib. Nəticədə, Norveç 1931-ci ildə adanın yaşayış olmayan şərq hissəsinin işğalına sanksiya verib. 1933-cü ildə bu qərar Haaqa Beynəlxalq Məhkəməsi tərəfindən qeyri-qanuni sayılıb. Bundan sonra Norveç ada ilə bağlı iddialarından imtina edib. İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra Danimarka Qrenlandiya üzərində suverenliyinin bərpasına nail olsa da, ABŞ orada əsas hərbi-strateji obyektlərini saxlaya bilib. ABŞ siyasi dairələri 1867 və 1946-cı illərdə ən azı iki dəfə Qrenlandiyanın alınmasını təklif ediblər. Xüsusən də Harri Trumen administrasiyası 1946-cı ildə Kopenhagenə adanı 100 milyon dollara almaq üçün gizli təklif göndərib, lakin bu plan Danimarka hakimiyyəti tərəfindən rədd edilib.

### ABŞ-RUSİYA-ÇİN QARŞIDURMASI

Hazırda isə əksəriyyət hesab edir ki, Trampın Qrenlandiya istəyi təsadüfi siyasi ritorika deyil. Bu onu göstərir ki, Tramp "America First" doktrinasını həyata keçirmək üçün ənənəvi diplomatik çərçivələrdən kənara çıxmağa hazırdır. Məsələ burasındadır ki, ABŞ-nin gələcək qlobal strategiyasında Arktika mərkəzi yer tutacaq. Qrenlandiya isə coğrafi baxımdan dünyanın ən həssas geosiyasi nöqtələrindən birində yerləşir. Ada Şimali Amerika ilə Avrasiya arasında körpü rolunu oynayır. Arktika üzərindən keçən qısa qütb trayektoriyaları Rusiyanın qitələrarası ballistik raketləri üçün əsas istiqamət hesab olunur. Qrenlandiyanın hava məkanı ABŞ və Kanadanın havadan müdafiəsi üçün vacibdir. Bu baxımdan, ada ABŞ üçün birinci müdafiə xəttidir.

Qrenlandiya nadir torpaq elementləri, uran, neft və qaz ehtiyatları baxımından da böyük potensiala malikdir. ABŞ bu sahədə Çindən asılılığı azaltmaq üçün alternativ mənbələr axtarır və Qrenlandiya bu boşluğu doldura biləcək əsas regionlardan biridir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# AVTOMOBİL SAYI ARTIR, BAKI NƏFƏS ALA BİLMİR



**Bakıda avtomobil sayının sürətlə artması tıxac və parkinq problemini dərinləşdirib. Şəhərin mövcud infrastrukturu bu yükü daşımaqda çətinlik çəkir. Çıxış yolu kimi yol-nəqliyyat sisteminin idarə edilməsi və mikromobillik, yəni ictimai nəqliyyata üstünlük verilməsi göstərilir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

"Biz Bakıda bir çox önəmli nəqliyyat layihələrini icra etdik. Bu, bizə imkan verdi ki, müəyyən mərhələdə özümüzü tıxaclardan sığortalayaq. Ancaq inkişaf göz qabağındadır, əhali artır, maşınların sayı artır. Hər il ölkəmizə on minlərlə yeni avtomobil gətirilir. Onların istismar müddəti ilə bağlı indi müəyyən məhdudiyyətlər də qoyulur. Yerli avtomobil istehsalı artır. Ona görə mövcud yol infrastrukturu artıq bizə kifayət etmir", - bu fikirləri Prezident İlham Əliyev yerli telekanallara son müsahibəsində səsləndirib. Dövlət başçısı bildirib ki, yol-nəqliyyat sisteminin idarə edilməsi və mikromobillik, yəni ictimai nəqliyyata üstünlük verilməsi bir çıxış yolu ola bilər. "Hesab edirəm ki, növbəti beş il ərzində bu əsas problemlər öz həllini tapmalıdır", – Prezident qeyd edib.

### "AVROPA ŞƏHƏRLƏRİNDƏ AVTOMOBİL SAYI BAKIDAKINDAN QAT-QAT ÇOXDUR"

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev düşünür ki, Bakı yollarındakı sıxlığın kökü avtomobillərlə edilən gündəlik səfərlərin çoxluğundadır: "Xüsusilə qısa məsafələrə şəxsi avtomobillə gedənlərin sayı çoxdur və bu səfərlərin mümkün qədər ictimai nəqliyyatla əvəzlənməsi üçün şərait yaradılmalıdır. Avtomobillərin sayının çoxluğu həlledici faktor deyil. Orta statistik Avropa şəhərlərində avtomobil sayı Bakıdakından qat-qat çoxdur. Fərq ondadır ki, həmin şəhərlərdə gündəlik səfərlərin böyük hissəsi avtomobillə edilmir".

R.Ağamirzəyevin sözlərinə görə, şəhərdə ümumi parklanmanın idarə olunması da vacib məsələlərdən biridir. Əgər bina tikilərkən parkinq nəzərə alınmayıbsa, sonradan müəyyən sahələrin parkinqə çevrilməsi mümkündür: "Bir çox ölkələrdə yeraltı parkinqlər təşkil olunur və tələbat artdıqca yeni parkinqlərin yaradılması adi praktikadır. Hətta bəzi ölkələrdə avtomobil alınarkən vətəndaşdan onu harada saxlayacağı soruşulur və parkinqlə ən azı birillik müqavilə tələb edilir".

Memar, urbanist Səbinə Abbasovanın sözlərinə görə, Bakıda gündəlik və alternativsiz avtomobil istifadəsi tıxaclara, parkinq böhranına, vizual və ekoloji çirklənməyə səbəb olur: "Həyətlərin, səkilərin və ictimai məkanların parkinq sahəsinə dönməsi şəhər həyatının keyfiyyətini ciddi şəkildə aşağı salır. İctimai nəqliyyatın yetərincə inkişaf etməməsi, piyada infrastrukturunun keyfiyyətsizliyi, zəif işıqlandırma və şəhər toxumasını parçalayan yol ayrıcıları avtomobilsiz hərəkəti çətin və təhlükəli edir. Bu isə insanları istər-istəməz şəxsi avtomobildən istifadəyə məcbur edir. Piyada mühitinə laqeyd münasibət, avtomobil hərəkətinə üstünlük verilməsi və şəhər küçələrinin tranzit magistrallara çevrilməsi vəziyyəti daha da ağırlaşdırır".

## "SƏRT MƏHDUDİYYƏTLƏR NƏTİCƏ VERMƏYİB"

S.Abbasova bildirdi ki, şəhərdə avtomobil sayını qadağalarla azaltmaq da effektiv yol sayılmır. Dünyanın bir çox şəhərində tətbiq olunan sərt məhdudiyyətlər nəticə verməyib: "Əsl çıxış yolu insanların gündəlik avtomobil istifadəsindən öz istəkləri ilə imtina etməsinə şərait yaratmaqdır. Bu isə yalnız rahat, etibarlı və şaxələndirilmiş ictimai nəqliyyat, təhlükəsiz və piyada üçün cəlbedici küçə mühiti ilə mümkündür".

### "TRAMVAY XƏTLƏRİ YOLLARIN YÜKÜNÜ AZALDA BİLƏR"

"İnsan yönümlü şəhərlər" layihəsinin təsisçisi, urbanist Anar Əliyevin sözlərinə görə, Baş plana uyğun olaraq paytaxtın insan yönümlü şəhərə çevrilməsi nəzərdə tutulur və bu çərçivədə ictimai nəqliyyatın yaxşılaşdırılması əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib: "Artıq yeni metro stansiyalarının tikintisinə başlanılıb, lakin problemin həlli yalnız yolların genişləndirilməsi ilə mümkün deyil. İnsanlara real alternativlər təqdim olunmalıdır. Çıxış yolu iritutumlu nəqliyyat vasitələrinin inkişafındadır. Bu baxımdan tramvay xətlərinin Bakıya qaytarılması metronun və avtomobil yollarının yükünü əhəmiyyətli dərəcədə azalda bilər. Avropa şəhərlərinin təcrübəsi də bunu göstərir".

### "ŞƏHƏR MƏRKƏZİNƏ AVTOMOBİLLƏ DAXİL OLMAQ GETDİKCƏ MÜMKÜNSÜZ OLACAQ"

Nəqliyyat eksperti Eldəniz Cəfərovun sözlərinə görə, Bakının avtomobil limiti artıq tükənib. Sovet dövrü planlamasına əsasən, şəhər 300–400 min avtomobil üçün nəzərdə tutulsa da, hazırda gündəlik hərəkətdə olan avtomobillərin sayı 700–800 minə çatır: "Bu isə kritik həddin çoxdan keçildiyini göstərir. Hazırda Bakı artıq pik saat tıxac mərhələsini geridə qoyub. Səhər və axşamla yanaşı, gün ərzində də yollar dolur, alternativ küçələr və məhəllədaxili yollar belə hərəkətsiz olur. Növbəti mərhələ isə nəqliyyat iflicidir. Əgər mövcud tendensiya dəyişməzsə, şəhər mərkəzinə avtomobillə daxil olmaq getdikcə mümkünsüz olacaq. İnsanlar bu gün tıxaclarda yarım saat itirirsə, gələcəkdə saatlarla tıxacda qalacaqlar".

Ekspertin fikrincə, parklanma problemi də vəziyyəti ağırlaşdırır. Yeni tikilən obyektlərin layihələrində parkinq nəzərdə tutulsa da, real icrada bu tələblərə əməl olunmur.



## "BAKININ YÜKÜ AZALDILMALIDIR"




Mütəxəssis çıxış yolunu Bakının yükünün azaldılmasında görür: "Variantlardan biri paytaxt funksiyalarının qismən başqa şəhərlərə ötürülməsidir. Digər yanaşma təhsil müəssisələrinin ayrıca akademik şəhərcikdə cəmləşdirilməsidir. Bu, gündəlik hərəkət axınını əhəmiyyətli dərəcədə azalda bilər. Avtomobil sahibləri üçün yüksək vergi tətbiqi isə effektiv mexanizm hesab edilmir. Bunun əvəzinə pullu zonaların yaradılması və şəhər mərkəzinə girişin mərhələli şəkildə tənzimlənməsi daha real çıxış yolu kimi dəyərləndirilir. Problemin əsas həlli ictimai nəqliyyatın şaxələndirilməsindən keçir".



## Kanalizasiya və sutəmizləyici layihələrə 572 milyon manat xərclənəcək

# BAKININ SƏSSİZ YÜKÜ

**Hazırda Bakı və ətraf ərazilərdə içməli su təchizatı, kanalizasiya sistemləri üzrə nəzərdə tutulan layihələr həyata keçirilir. Onların icrası yeni infrastrukturun formalaşdırılmasına və şəbəkələrin ötürücülük qabiliyyətinin artırılmasına xidmət edəcək. Görüləcək işlər Bakının kanalizasiya sistemini etibarlı hala gətirəcək.**

**SEVİNC ABBASOVA**

Bu gün Bakı və Abşeron yarımadasının bəzi yerlərində kanalizasiya xətləri ya köhnəlib, ya da ümumiyyətlə, mövcud deyil. Nəticədə yağan yağış, kanalizasiya suları küçələrdə, bəzən isə evlərin zirzəmilərinə qədər toplanır, hərəkəti çətinləşdirir və sanitar-gigiyenik vəziyyəti pozur. Bu problemi həll etmək üçün "Tikilməkdə olan obyektlərin müdiriyyəti" publik hüquqi şəxsi bu il 572 milyon manatı aşan iri kanalizasiya və sutəmizləyici layihələr həyata keçirəcək.

Prezident İlham Əliyev də yerli telekanallara müsahibəsində bu məsələyə toxunub. "Biz tezliklə Bakı, Sumqayıt və Xırdalanın, bütün Abşeron yarımadasının su-kanalizasiya sistemləri üzrə irimiqyaslı proqram qəbul edəcəyik, çünki buna tələbat böyükdür. Bir çox iş görülüb, lakin hələ də çatışmazlıqlar var. Hələ də güclü yağışlar olanda problemlərlə üzləşirik", - deyə dövlət başçısı vurğulayıb.

### TULLANTI SULARI MƏRKƏZLƏŞDİRİLMİŞ ŞƏKİLDƏ TOPLANACAQ

Layihələrin ən iri hissələrindən biri Müşfiqabad hövzəsi üzrə həyata keçirilir. Bu ərazidə gətirici kanalizasiya kollektorunun tikintisi üçün "Nort Vest Konstrakşn" MMC ilə 135 milyon manat dəyərində müqavilə bağlanıb. Layihə tullantı suların mərkəzləşdirilmiş şəkildə toplanaraq sutəmizləyici qurğulara ötürülməsini təmin edəcək. Eyni şirkət Dərnəgül-Bakıxanov-Qaraçuxur-Hövsan xətti üzrə magistral kanalizasiya kollektorunun tikintisini də həyata keçirəcək. Bu layihənin dəyəri 95 milyon manat təşkil edir.

Tullantı suların təmizlənməsi istiqamətində ən böyük layihələrdən biri Lökbatan hövzəsi üzrə sutəmizləyici qurğunun tikintisidir. "Euroline" QSC ilə bağlanmış müqavilənin dəyəri 164 milyon 998 min manatdır. Qurğu tullantı suların müasir ekoloji standartlara uyğun təmizlənməsini təmin etməklə Xəzər dənizinə və ətraf mühitə mənfi təsirlərin azalmasına imkan yaradacaq.

Müşfiqabad hövzəsində ikinci mühüm layihə sutəmizləyici qurğunun tikintisidir. Avro-Asiya İnşaat Korporasiyası "Evrascon" ASC tərəfindən icra olunacaq bu layihənin dəyəri 102 milyon 486 min manatdır.

Böyükşor hövzəsi üzrə sutəmizləyici qurğunun tikintisi üçün "AGE" MMC ilə 64 milyon 698 min manat dəyərində müqavilə bağlanıb. Bu layihə Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.









## Sistemin ötürücülük qabiliyyəti artırılır

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti bu layihələrlə əhalinin dayanıqlı içməli su ilə təmin olunmasına, tullantı və yağış sularının təhlükəsiz daşınmasına nail olmağı hədəfləyir. Qurumdan "Kaspi"nin sorğusuna cavab olaraq bildirilib ki, hazırda içməli su təchizatı və kanalizasiya sistemlərinin qurulması və yenilənməsi üzrə nəzərdə tutulan layihələrin tikinti-quruculuq işləri plan üzrə həyata keçirilir: "Layihələrin icrası yeni infrastrukturun formalaşdırılmasına, mövcud sistemin təkmilləşdirilməsinə və şəbəkələrin ötürücülük qabiliyyətinin artırılmasına xidmət edəcək. Eyni zamanda tullantı sularının maneəsiz daşınması təmin olunacaq, subasma hallarının qarşısı alınacaq və sistemin istismar səviyyəsi yüksəldiləcək".

Qurumdan həmçinin qeyd edilib ki, ərazilər üzrə mərkəzləşmiş tullantı su şəbəkəsinin qurulması məqsədilə yeni kollektor, xətlərin və qurğuların inşası müntəzəm icra edilir. Bu layihələr infrastruktur problemlərinin aradan qaldırılmasına, tullantı sularının idarə olunmasının mərkəzləşdirilmiş şəkildə təşkilinə xidmət edəcək. Eyni zamanda müasir texnologiyalar əsasında inşa olunan tullantı sutəmizləyici qurğuların istismara verilməsi tullantı sularının mövcud standartlara uyğun şəkildə təmizlənərək axıdılmasına şərait yaradacaq. Bu isə ətraf mühitin və ekoloji vəziyyətin yaxşılaşdırılmasına, su hövzələrinin qorunmasına imkan verəcək".

### PROBLEM 3-4 İLƏ HƏLLİNİ TAPA BİLƏR

Azərbaycanın tanınmış memarı, professor Cahid Həsənov hesab edir ki, sovet dövründə tikilmiş Bakı şəhərinin kanalizasiya və su ötürücü sistemi 1,5–2 milyon əhali üçün nəzərdə tutulub: "Bu gün paytaxt və ətraf ərazilərin əhalisi 3,5–4 milyona çatıb, yeni tikilən yaşayış binaları, ticarət mərkəzləri, hotellər və küçələrdəki iaşə obyektlərinin sayı isə artıb. Bu da mövcud sistemin yükünü əhəmiyyətli dərəcədə artırıb".

Problemin həlli üçün kanalizasiya xətləri beynəlxalq standartlara uyğun və uzunmüddətli dayanıqlı şəkildə yenilənməlidir: "Sadəcə xətləri çəkib torpaq tökmək və asfalt salmaq kifayət etmir. Xətlər betonlaşdırılmış qoruyucu tunellər içərisində qurulmalı, üstündən ağır tonnajlı nəqliyyat vasitələri keçsə belə sistemin möhkəmliyi qorunmalıdır".

Professor yeni layihələrə ümidlə yanaşır və hesab edir ki, görüləcək işlər Bakının kanalizasiya sistemini müasir tələblərə uyğun, dayanıqlı və etibarlı hala gətirəcək: "Burada əsas məsələ ondan ibarətdir ki, işlər mərhələli şəkildə aparılmalı, peşəkar komanda tərəfindən həyata keçirilməlidir. Əgər işi peşəkarlar görsə, layihəyə uzunmüddətli zəmanət vermək mümkündür. Təxminən 3–4 il ərzində paytaxtın kanalizasiya problemi tamamilə həll oluna bilər".



Cahid Həsənov

XALQ YAZIÇISI KAMAL ABDULLADAN YAŞIN FƏLSƏFƏSİ, DOSTLUQ, İTKİLƏR, ƏDƏBİYYAT VƏ TALE HAQQINDA MARAQLI FİKİRLƏR

# “GƏNC KAMALA DEYİLƏCƏK SÖZLƏRİM VAR”






Fotolar: Ramil Yusubov/Global Photostock

**Kamal Abdulla:** “Mən heç vaxt qarşıma konkret məqsədlər qoymamışam ki, mütləq yazıçı olacağam, mütləq filan əsəri yazacağam. Dostlarımın hər biri ilə məni bir yaradıcılıq işi bağlayır. Azad Mirzəcanzadə ilə kitab, Vaqif İbrahimoğlu ilə səhnə, Həsənağa Turabovla dramaturgiya...”

XƏYALƏ RƏİS

Zaman hər kəsdən hesabat istəyir. Amma elə adamlar var ki, zamanın özü onlardan hesabat alır. Filologiya elmləri doktoru, professor, Xalq yazıçısı Kamal Abdulla məhz bu nadir söz adamlarındandır. Onun yaradıcılığı konkret bir ədəbi mərhələnin çərçivəsinə sığmır. Alim də olub, yazıçı da, dramaturq da, düşüncə adamı da... Dekabrın 4-də Xalq yazıçısının 75 yaşı tamam oldu. Biz də Kamal Abdulla ilə məhz bu ovqatda - sükut və düşüncə fonunda görüşdük. Söhbətimiz yaşın fəlsəfəsindən başladı, dostluqdan, itkilərdən keçdi, ədəbiyyatın tale məsələsinə, elmin sərhədlərinə və “Dədə Qorqud”un Qərb dünyasına yoluna qədər uzandı...

### “YETMİŞ BEŞ ASAN GƏLMİR”

● **Kamal müəllim, 2025-ci ilin son ayında 75 yaşınız tamam oldu. Bu münasibətlə sizi təbrik edirik.**

● Açığı, buna elə də təbrik düşmür, qızım. Daha çox təəssüf düşür. 75 ağır rəqəmdir. Oraya gəlib çatmaq asan deyil. İnsan bu yaşda daha çox itirdiklərini xatırlayır. Həyatın nə verdiyini yox, nə apardığını düşünür.

● **Geriyə baxanda hansı məqamı həyatınızda dönüş nöqtəsi sayırsınız?**

● Mənim həyatımda elə bir nöqtə olmayıb ki, orada dayanıb deyim: “Buradan sonra hər şey dəyişdi”. Dönüş nöqtəsi anlayışı mənə bir az süni gəlir. Həyatım ardıcıl, sakit və rəvan şəkildə axıb. Yaşadığım hər anın öz mənası, öz faydası olub. Heç birini o birindən ayırmaq istəmirəm.

## Dostluq, itki və gözlənilməyən zənglər

● **Yazıçı Seyran Səxavət deyir ki, dünyasını dəyişmiş bəzi dostlarından hələ də zəng gözləyir. Bəs siz kimdən zəng gözləyirsiniz?**

● Bizim böyük yazıçımız Anarın çox dəqiq bir fikri var: “Dostlarımın bir qismini məndən ölüm aldı, bir qismini isə həyat”. Ölümün apardığı dostların xiffətini bu gün də çəkirəm. Əlbəttə, bu gün onlarla görüşmək, dərdləşmək istərdim. Amma zəng gözləmirəm. Çünki onlar artıq bu dünyada deyillər. Bəziləri çox vaxtsız getdi. Kaş bu gün sağ olaydılar, yanımda olaydılar. Darıxıram...

● **Kimləri xatırlayırsınız bu məqamda?**

● Yaşına baxmadan məni özünə dost bilən Azad Mirzəcanzadəni, Həsənağa Turabovu, Vaqif İbrahimoğlunu, Niyazi Mehdini... Tanımadığınız dostlarım da var: Nizami, Aslan, Məlik... Məktəb yoldaşlarım üçün də darıxıram. Onlar üçün elə qəribsəmişəm ki... İnsan yaşa dolduqca keçmişlə münasibəti daha həssas olur.

### GƏNCLİKLƏ SƏSSİZ DİALOQ

● **İndiki Kamal Abdulla gənc Kamal Abdulla ilə üz-üzə gəlsəydi, ona nə deyərdi?**

● Elə sözlər var ki, onları yalnız o başa düşərdi. Başqaları mənim dediklərimi tam anlaya bilməzdi. O Kamal nə vaxtsa qarşıma çıxsa, həmin sözləri yalnız ona deyəcəyəm. Məni ondan başqa heç kim anlamaz.

● **Gənclik arzularınıza sadiq qala bilmisinizmi və o gənc Kamalın istəkləri reallaşıbmı?**

● Mən heç vaxt qarşıma konkret məqsədlər qoymamışam ki, mütləq yazıçı olacağam, mütləq filan əsəri yazacağam. Məqsəd olmayanda bəzi şeylər öz-özünə baş verir. Dostlarımın hər biri ilə məni bir yaradıcılıq işi bağlayır. Azad Mirzəcanzadə ilə kitab, Vaqif İbrahimoğlu ilə səhnə, Həsənağa Turabovla dramaturgiya... Bu yol təkbaşına gedilən yol deyil. Dostlarımın bu yolda böyük payı var. O ki qaldı arzuların reallaşmasına, bu, mənimlə o gənc Kamalın arasında ola biləcək bir söhbətdir.



### ƏDƏBİYYAT – SEÇİM YOX, YAŞAM TƏRZİ

● **Sizin üçün ədəbiyyat taledir, yoxsa seçim?**

● Mənim üçün ədəbiyyat yaşam tərzidir. Buna həm tale, həm də seçim demək olar. Amma mənim qarşımda heç vaxt alternativ yollar olmayıb ki, biri ədəbiyyat olsun, digəri başqa sahə. Elə bir an olmayıb ki, özümü ədəbiyyatdan kənarda hiss edim. Dostluq etdiyim Ramiz Rövşən, Anar, İsmayıl Məmmədli, Nizami Cəfərov kimi insanlar da məni daim bu mühitin içində saxlayıblar.

● **Amma sizi bəyənməyənlər də var...**

● Təbii. Hər kəsi bəyənmək mümkün olmadığı kimi, hamı tərəfindən bəyənilmək də mümkün deyil. Məni bəyənməyənlər bunu öz mədəniyyətlərinə uyğun şəkildə ifadə ediblər.

> “Ölümün apardığı dostların xiffətini bu gün də çəkirəm. Əlbəttə, bu gün onlarla görüş-mək, dərd-ləşmək istərdim.”

### DİLÇİ İLƏ YAZIÇININ BARIŞI

● **Dilçi Kamal Abdulla ilə yazıçı Kamal Abdulla necə yola gedir?**

● Çox rahat. Onlar artıq bir-biri ilə barışıblar. Dilçilik baqajım, elmi potensialım bədii düşüncəmdə özünü göstərir. “Dilçiliyə səyahət” kitabı da məhz bu niyyətlə yazılıb – dilçi olmayanlar üçün dilçilik formatında bir kitabdır. Elmi populyarlaşdırmaq istəyi var orada.

Son illər Rafiq Əliyevlə birlikdə qeyri-səlis məntiq mövzusunda bir neçə kitab üzərində çalışdıq. “Dədə Qorqud və qeyri-səlis məntiq”, “Qeyri-səlis məntiq: dil və nitq”, daha sonra Türkiyənin sabiq təhsil naziri Ziya Selçukun da qoşulduğu “Uşaqlar üçün qeyri-səlis məntiq” kimi maraqlı layihələr ərsəyə gətirdik. Burada məqsəd ciddi bir elm sahəsinə bədii təfəkkürün elementlərini gətirmək idi.

### “DƏDƏ QORQUD” QƏRBƏ GEDƏRKƏN...

● **“Dədə Qorqud və qeyri-səlis məntiq” kitabının ingilis dilində çapı nəyi ifadə edir?**

● Böyük alim Lütfi Zadənin ən böyük arzusu qeyri-səlis məntiqin sosial elmlərə tətbiqi idi. Biz bu arzunun bir hissəsini “Kitabi-Dədə Qorqud” üzərində həyata keçirdik və kitabı onun xatirəsinə həsr etdik. Bu, humanitar elmlərimiz üçün yeni mərhələnin başlanğıcıdır.

● **Qərb oxucusu buna hazırdırmı?**

● Məqsədimiz də elə budur. Qərb oxucusu burada Dədə Qorqudu Homerlə müqayisə etmək imkanı əldə edir. Bu dastan vasitəsilə müasir azərbaycanlının düşüncə tərzini, psixologiyasını hiss edir. Biz göstəririk ki, qədim əcdadlarımızın dünyagörüşündə demokratik elementlər mövcud olub. Mən bunu ilk növbədə Azərbaycan humanitar elmi üçün mühüm bir mərhələ hesab edirəm.

Burada söhbət təkcə bir kitabın başqa dildə çap olunmasından getmir. Söhbət düşüncə tərzimizin, mədəni yaddaşımızın, intellektual modelimizin beynəlxalq elmi dövriyyəyə daxil olmasından gedir. “Kitabi-Dədə Qorqud” bizim kimliyimizin kodlarından biridir. Ona yeni metodoloji prizmadan baxmaq və bu baxışı dünya elminə təqdim etmək böyük məsuliyyətdir.

● **Qeyri-səlis məntiq kimi mürəkkəb elmi konsepsiyanın “Dədə Qorqud”la birləşdirilməsi Qərb oxucusu üçün nə dərəcədə anlaşılandır?**

● Qərb oxucusu üçün bu yanaşma həm tanış, həm də yenidir. Tanışdır ona görə ki, qeyri-səlis məntiq Qərb elmi mühitində artıq qəbul olunmuş bir nəzəriyyədir. Yenidir ona görə ki, bu məntiq ilk dəfə olaraq türk epik düşüncəsinə, xüsusilə “Dədə Qorqud” kimi monumental mətnə tətbiq olunur. Burada biz göstəririk ki, dastanın düşüncə strukturu klassik Aristotel məntiqinə deyil, daha elastik, çoxqiymətli, qeyri-səlis məntiqə əsaslanır.

Əsas dəyişiklik ondadır ki, biz dastana müasir elmi şablonları zorla tətbiq etmirik. Əksinə, dastanın öz daxili məntiqini üzə çıxarırıq. “Dədə Qorqud”da qəhrəmanlar ya tam ağ, ya tam qara deyil. Orada qərarlar birmənalı deyil, situativdir, dəyişkəndir. Qeyri-səlis məntiq bu düşüncə modelini izah etmək üçün ən uyğun vasitədir. Bu, dastanı daha dərindən anlamağa imkan verir.



## “Bu əsər “Arşın mal alan”ın davamı deyil”

● **“Əsgər ağa və Gülçöhrə” əsərinin Azərbaycan Dövlət Akademik Musiqili Teatrında böyük təqdimatı oldu.**

● Əvvəlcə onu deyim ki, bu əsər “Arşın mal alan”ın davamı deyil. Bunu xüsusi vurğulamaq istəyirəm. “Arşın mal alan” həyatdan götürülmüş bir süjetin yüksək bədii ifadəsidir. Üzeyir bəy real həyatı götürüb onu idealizə edir, musiqi ilə, yumorla, sevgi ilə zənginləşdirir. Mənim yazdığım “Əsgər ağa və Gülçöhrə” isə artıq idealın sonrakı taleyidir. Bu, romantikanın gündəlik həyatla üz-üzə gəlməsidir.

● **Yəni bu, məşhur operettanın qəhrəmanlarının “sonrakı həyatı”dır?**

● Bəli, məhz elədir. Əsgər və Gülçöhrə səhnədə sevərək qovuşurlar, amma həyat orada bitmir axı. Mənim üçün maraqlı olan sual bu idi: onlar evləndikdən sonra nə baş verdi? Sevgi gündəlik qayğıların, zamanın, sosial münasibətlərin içində necə dəyişir? Bu artıq komediyadan çox, həyatın özüdür. Burada artıq sevgi nağıl deyil. Burada insan münasibətləri, xarakterlərin toqquşması, zamanın insanı dəyişməsi var. Əsgər artıq yalnız aşiq deyil, məsuliyyət daşıyan bir insandır. Gülçöhrə isə ideal obraz olmaqdan çıxıb real qadına çevrilir. Mənim üçün bu keçid çox önəmli idi.

● **Tamaşanın səhnə həlli sizi qane etdimi?**

● Ümumilikdə bəli. Səhnə həmişə mətndən fərqli bir nəfəsdir. Yazılı mətndə sən daha çox düşünürsən, səhnədə isə emosiyalar önə çıxır. Bəzi məqamlar var ki, mətni yenidən yazsaydım, bəlkə də xırda dəyişikliklər edərdim. Bu, hər müəllifdə olur. Tamaşaya baxanda qeyri-ixtiyari olaraq “burada bir cümləni başqa cür deyərdim” deyə düşünürsən. Amma bu artıq yaradıcı prosesin təbii hissəsidir. Əsas mesaj budur ki, sevgi yalnız başlanğıc deyil. Sevgi davamdır, zəhmətdir, güzəştdir. İnsanlar çox vaxt sevginin özünü yox, onun ideal təsvirini sevirlər. Amma həyat ideallarla yox, reallıqlarla davam edir. “Əsgər ağa və Gülçöhrə” məhz bu reallığın içində sevginin taleyindən danışır.

● **Bu yaxınlarda xatirələrdən bəhs edən “Unutmağa kimsə var” adlı kitabınız çap olundu. Bu bir hesabatdır, yoxsa başlanğıc?**

● Kitabın ön sözündə yazmışam: bunlar xatirələrdir. Unutmağa kimsə yoxdur. Yadıma düşdükcə boşluqlar dolur. Bu kitabda keçən əsrin ortalarından bu günə qədər həyatımda baş verənləri xatirələr, sistemli qafiyələr şəklində təsvir vasitəsi ilə qələmə aldım. Bu kitabda elmin və bədii yaradıcılığın vəhdətinin necə formalaşdığının ağır və əzablı yolu görünür. Kitab böyük və maraqlı bir dövrü əhatə edir. Arzuları, xəyalları...

● **Yaş artdıqca arzular azalırmı?**

● Arzular azalır, amma dərinləşir. Arzuların dayazı olmur. Onlar həmişə əlçatmazlığı ilə dərindir.

● **Həyatınızı bir cümlə ilə ifadə etsəniz o cümlə nə olardı?**

● Taleyimdə olan həyatımda olmayıb. Bu, mənim bir hekayəmdən gələn cümlədir.

# DEPRESSİYA, YUXUSUZLUQ VƏ KONSENTRASİYA

D vitamini çatışmazlığı yalnız fiziki deyil, həm də psixoloji problemlərə səbəb ola bilər. Bunlara depressiya, yuxusuzluq və konsentrasiya pozuntuları daxildir.




Qış aylarında insan sağlamlığı üçün ən vacib elementlərdən olan D vitamininin orqanizmdə çatışmazlığı aktual problem olaraq qalmaqdadır. Bu məsələ ilə bağlı mütəxəssislər xəbərdarlıq edərək D vitamini çatışmazlığının ciddi fəsadlara yol açdığını bildirirlər.

### BU VİTAMİN YAĞDA HƏLL OLUNUR

Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun həkim mama-ginekoloqu Aynurə Qaybalıyeva AZƏRTAC-a bildirib ki, D vitamini çox vaxt “günəş vitamini” kimi tanınır, çünki insan orqanizmi onu əsasən günəş şüalarının təsiri ilə özü sintez edir. Həkim qeyd edir ki, D vitamini əslində hormonabənzər bir maddədir və hüceyrə səviyyəsində minlərlə prosesin idarəsində iştirak edir. Bu vitamin yağda həll olunur, qaraciyər və böyrəklərdə aktiv formaya çevrilərək öz funksiyasını yerinə yetirir. Orqanizmdə D vitamininin əsas funksiyası kalsium və fosforun bağırsaqlarda sorulmasını təmin etməkdir: “Bu, sümüklərin möhkəmliyini qorumaq və diş strukturunun normal inkişafı üçün vacibdir. Bundan əlavə, D vitamini əzələlərin gücünü, sinir sisteminin işləməsini və immun sisteminin effektiv fəaliyyətini dəstəkləyir. Araşdırmalar göstərir ki, D vitamini çatışmazlığı yalnız fiziki deyil, həm də psixoloji problemlərə səbəb ola bilər. Bunlara depressiya, yuxusuzluq və konsentrasiya pozuntuları daxildir”.

### D VİTAMİNİ SƏVİYYƏSİ AŞAĞI OLARSA...

Həkim qeyd edib ki, hamiləlik zamanı qadın orqanizmi bir sıra ciddi dəyişikliklərə məruz qalır: “Bu dövr yalnız bir insanın yox, iki canlının – ananın və körpənin paralel ehtiyaclarının qarşılanmalı olduğu kompleks bioloji mərhələdir. Bu səbəbdən bəzi vitaminlərə, xüsusilə də D vitamininə tələbat artır. D vitamini körpənin skelet sisteminin inkişafı üçün həyati əhəmiyyət daşıyır. Onun sümüklərinin formalaşması, diş toxumasının yaranması, sinir sisteminin və immun sisteminin sağlam inkişafı bu vitaminin iştirakı ilə baş verir. D vitamini həm də plasentanın normal fəaliyyətinə, körpəyə oksigen və qida maddələrinin düzgün daşınmasına kömək edir. Eyni zamanda, doğuş müddətinin tənzimlənməsində və erkən doğuş riskinin azaldılmasında da mühüm rol oynayır. Əgər hamilə qadının orqanizmində D vitamini səviyyəsi aşağı olarsa, bu həm ana, həm də körpə üçün ciddi sağlamlıq riskləri yarada bilər. Belə ki, bu vitaminin yetərsizliyi uşaqda raxit kimi sümük deformasiya xəstəliklərinə, zəif immun sisteminə və inkişaf geriliklərinə səbəb ola bilər”.

### BU VİTAMİN ORQANİZMƏ ÜÇ YOLLA DAXİL OLUR

A.Qaybalıyeva deyib ki, D vitamini orqanizmə günəş işığı, qidalar və tibbi əlavələr olmaqla, əsasən, üç yolla daxil olur. “Günəş şüaları vasitəsilə dəri altında sintez olunan D vitamini təbii mənbə sayılır. Dərinin açıqda qalması və gün ərzində təxminən 15-20 dəqiqə günəş altında olmaq bu prosesin baş verməsi üçün kifayət edir. Qidalarla qəbul edilən D vitamini mənbələri arasında som balığı, sardina, yumurta sarısı, balıq yağı, süd və süd məhsulları xüsusilə seçilir. Lakin bu məhsulların gündəlik istehlakı ilə D vitamini tələbatını tam qarşılamamaq mümkündür. Buna görə də xüsusilə hamilə qadınlara həkim məsləhəti ilə damcı, kapsul və ya maye formada D vitamini əlavələri təyin olunur. Hamiləlik dövründə bir qadının gündəlik D vitamini ehtiyacı təxminən 600-2000 IU (Beynəlxalq Vahid) arasında dəyişir. Bu rəqəm şəxsin yaşına, dərisinin günəşə məruz qalma səviyyəsinə, bədən çəkisinə, yaşadığı iqlimə və ümumi sağlamlıq vəziyyətinə görə dəyişə bilər. Əgər analizlər nəticəsində D vitamini səviyyəsi aşağı çıxarsa, həkim bu ehtiyaca uyğun dozada preparat təyin edir. D vitamini yağda həll edilən vitamin olduğu üçün yağlı yeməklərlə birlikdə qəbul etmək onun mənimsənilməsini artırır. Lakin diqqətli olmaq lazımdır. Özbaşına, nəzarətsiz qəbul edilən yüksək doza sağlamlıq üçün təhlükə yarada bilər”,- deyə o vurğulayıb.



# SOCAR və “TotalEnergies” arasında müzakirə

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və “TotalEnergies” şirkəti arasında “Abşeron” qaz-kondensat yatağının tammiqyaslı işlənməsi istiqamətində atılan addımlar müzakirə edilib. Bu barədə “Report”a SOCAR-dan məlumat verilib.

Bildirilib ki, bu müzakirə SOCAR-ın prezidenti Rövşən Nəcəfin “TotalEnergies” şirkətinin baş vitse-prezidenti Martina Oppizi ilə görüşündə aparılıb.

Görüşdə iki şirkətin birgə iştirakı ilə reallaşdırılan layihələrin icra vəziyyəti müzakirə olunub. O cümlədən tərəflər enerji sahəsində qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, “Abşeron” yatağı Azərbaycan geoloqları tərəfindən ötən əsrin 60-cı illərində kəşf edilib. Yataqda qaz həcminin 350 milyard kubmetr olduğu bildirilir.

“Abşeron” yatağı üzrə 2009-cu ildə Fransanın “Total” şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında kontrakt imzalanıb. 2023-cü ilin avqustun 4-də isə Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) ilə “Abşeron” qaz-kondensat yatağında 30%-lik iştirak payının alınmasına dair saziş imzalanıb.

Sazişə əsasən, SOCAR və “TotalEnergies” şirkətlərinin hər birinin iştirak payları müvafiq olaraq 35% təşkil edir.



Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 57
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

YERLİ İDARƏETMƏ SAHƏSİNDƏ APARILAN İSLAHATLARIN NÖVBƏTİ MƏRHƏLƏSİ BAŞLAYIR

# MİS-LƏR DƏ MMC OLACAQ

**Nazirlər Kabinetinin qərarı ilə mənzil istismar sahələrinin bazasında vahid mənzil-kommunal təsərrüfatı müəssisələrinin yaradılması hazırkı mərhələdə onların ləğvi anlamına gəlmir. İslahatın əsas məqsədi idarəetmənin vahidləşdirilməsi, qərarların daha çevik və şəffaf qəbul olunması, eləcə də maliyyə intizamının gücləndirilməsidir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan hökuməti yerli icra hakimiyyəti başçılarının tabeliyində fəaliyyət göstərən mənzil-kommunal təsərrüfatı müəssisələrinin işini təkmilləşdirmək məqsədilə yeni təşəbbüs irəli sürüb. Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, mövcud mənzil istismar sahələrinin (MİS) bazasında Vahid Mənzil-Kommunal Təsərrüfatı Müəssisəsi – Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) yaradılacaq. Qərar cəmiyyətdə MİS-lərin taleyi ilə bağlı suallar doğurub. Bəs bu addım MİS-lərin ləğvi kimi qiymətləndirilə bilərmi?

### “MİS -LƏR FƏALİYYƏT GÖSTƏRMƏYƏ DAVAM EDƏCƏK”

Milli Məclisin deputatı Vüqar Bayramovun sözlərinə görə, yeni qərar MİS-lərin ləğvi mənasına gəlməməlidir:



Vüqar Bayramov

“Kommunal təsərrüfat müəssisələri MİS-lərin bazasında yaradılır. Növbəti mərhələdə MİS-lərə ehtiyacın olub-olmadığı məsələsi aydınlaşacaq. Hazırkı mərhələdə söhbət onların ləğvindən deyil, məhz bazasında yeni müəssisələrin yaradılması prosesinə start verilməsindən gedir. MİS-lərin bazasında vahid mənzil-kommunal təsərrüfatı müəssisələrinin yaradılmasında əsas məqsəd bu sahədə idarəetmənin vahidləşdirilməsi və sistemləşdirilməsidir. Bu dəyişiklik mənzil-kommunal təsərrüfatı sahəsində aparılan islahatların bir mərhələsi kimi qiymətləndirilməlidir. Vahid MMC-nin yaradılmasında əsas hədəf idarəetmənin çevikliyini artırmaq, qərarların daha operativ və şəffaf şəkildə qəbul olunmasına nail olmaqdır. Hazırda MİS-lər təsərrüfat hesablı qurumlar kimi fəaliyyət göstərir. Təsərrüfat hesablı olduqları üçün onların maliyyə mənbələri əsasən özlərinin əldə etdiyi gəlirlər hesabına formalaşır”.

V.Bayramovun fikrincə, qəbul edilən qərar mülkiyyət hüquqlarına təsir göstərmir: “Belə ki, praktik olaraq MİS-lərin balansında olan əmlak bundan sonra da təsərrüfat müəssisəsi tərəfindən idarə olunacaq. Əmlak balansda qaldığı üçün mülkiyyətin transferi ilə bağlı hər hansı risk yaranmır. Bu baxımdan, mülkiyyət hüquqları ilə əlaqədar problem gözlənilmir. Bu addım yerli idarəetmə sahəsində aparılan islahatlardan biridir. Ümumilikdə isə gözlənilir ki, 2026-cı ildə yerli idarəetmə sistemində kifayət qədər genişmiqyaslı islahatların həyata keçirilməsini müşahidə edəcəyik”.



### “MİS-LƏR YENİ STRUKTURUN TƏRKİBİNƏ DAXİL EDİLƏCƏK”

Hüquqşünas Arif Nəzərov isə düşünür ki, bu yenilik zəruri idi: “Azərbaycanda aparılan köklü islahatlar bütün sahələrdə olduğu kimi mənzil-kommunal təsərrüfatı sahəsində də mütərəqqi idarəetmə sisteminin tətbiqini qaçılmaz edir. Hazırkı dövrədək bu istiqamətdə xidmətlərin göstərilməsi yerli icra hakimiyyəti orqanlarının tabeliyində fəaliyyət göstərən müxtəlif qurumlar tərəfindən həyata keçirilib. Lakin həmin qurumların inzibati strukturlar kimi fəaliyyət göstərməsi bazar iqtisadiyyatının tələbləri baxımından qeyri-səmərəli hesab olunur. Bu baxımdan Nazirlər Kabinetinin “Yerli icra hakimiyyəti başçılarının tabeliyində olan mənzil-kommunal təsərrüfatı sahəsində xidmət göstərən müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi haqqında” 22 dekabr 2025-ci il tarixli 408 nömrəli qərarı mənzil-kommunal təsərrüfatı qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi və mövcud iqtisadi münasibətlərə uyğunlaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir”.

A.Nəzərov bildirdi ki, mənzil istismar sahələri yeni yaradılan müəssisələrin tərkibində fəaliyyət göstərəcək: “Belə ki, əvvəlki qaydada mövcud olan Mənzil-Kommunal Təsərrüfatı Birlikləri çərçivəsində yaradılmış mənzil istismar sahələri yeni strukturun tərkibinə daxil ediləcək. Qərara əsasən, yerli icra hakimiyyəti orqanlarının tabeliyində məhdud məsuliyyətli cəmiyyət formasında yaradılacaq mənzil-kommunal təsərrüfatı müəssisələrinin fəaliyyət istiqamətləri mənzil-kommunal təsərrüfatı və mənzil istismarı sahəsi üzrə xidmətlərin göstərilməsini, istehsalat və məişət tullantılarının yığılmasını, daşınmasını, yaşayış məntəqələrinin abadlaşdırılması və yaşıllaşdırılmasını, eləcə də işıqlandırma işlərinin həyata keçirilməsini əhatə edəcək”.

## “DƏYİŞİKLİKDƏN SONRA GƏLİR VƏ XƏRCLƏR DAHA ŞƏFFAF OLACAQ”

Hüquqşünas qeyd etdi ki, mənzil-kommunal təsərrüfatı müəssisələrinin yaradılması indiyədək mövcud olan resurslardan, o cümlədən kadr potensialından daha səmərəli istifadə olunmasına şərait yaradacaq: “Mənzil-kommunal təsərrüfatı sahəsində xidmət göstərən qurumların balansında olan əmlakın məqsədli və təyinatına uyğun istifadəsi bu istiqamətdə effektivliyi artıracaq. Eyni zamanda, illər ərzində formalaşmış təcrübəli kadr potensialı mənzil-kommunal təsərrüfatı sahəsində xidmət keyfiyyətinin yüksəldilməsinə töhfə verəcək. Bununla yanaşı, yeni müəssisələrin təsis edilməsi Mənzil Məcəlləsinin tələbləri baxımından da təqdirəlayiq hesab edilir. Belə ki, həmin müəssisələrin müqavilə əsasında çoxmənzilli binaların idarəetmə prosesinə cəlb olunması mülkiyyətçilərə məxsus ümumi əmlakın qorunub saxlanmasına və düzgün istismarına müsbət təsir göstərəcək”.

Müsahibimiz bildirdi ki, sözügedən müəssisələrin fəaliyyətə başlaması maliyyə intizamının və şəffaflığın təmin olunması baxımından da vacib addım kimi qiymətləndirilməlidir: “Müxtəlif mənbələrdən daxil olan gəlirlərin dəqiq uçotu və planlı şəkildə xərclənməsi mənzil-kommunal xidmətlərin fasiləsizliyinə zəmanət yaradır. Nəticədə müvafiq infrastrukturun, əmlakın saxlanılması və yenilənməsi üçün zəruri maliyyə bazası formalaşır. Gəlir və xərclər barədə açıq, əlçatan məlumatların təqdim edilməsi mənzil-kommunal xidmətlərindən istifadə edənlərin prosesləri izləməsinə imkan verir. Tariflərin formalaşma mexanizmi və yığılan vəsaitlərin hansı istiqamətlərə xərcləndiyi aydın olduqda, əhali ödənişlərə daha məsuliyyətlə yanaşır ki, bu da ödəniş intizamının yüksəlməsinə müsbət təsir göstərir”.



Arif Nəzərov

Hüquqşünasın sözlərinə görə, mənzil-kommunal təsərrüfatı sahəsində aparılan islahatlar kompleks və davamlı xarakter daşımalıdır. İdarəetmə, maliyyə, infrastruktur və institusional dəyişikliklərin uzlaşdırılmış şəkildə həyata keçirilməsi əhaliyə göstərilən mənzil-kommunal xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, sahənin rəqabətqabiliyyəti və dayanıqlı inkişafına zəmin yaradacaq.

## QR ÖDƏNİŞLƏR ZAMANI NƏ OTP, NƏ DƏ ƏLAVƏ ŞƏXSİ MƏLUMAT TƏLƏB OLUNUR

# ETİBARLI VƏ RAHAT ÖDƏNİŞ ÜSULU

QR ödənişlərin əsas üstünlüklərindən biri odur ki, əməliyyat zamanı PIN-kod, kart məlumatı və digər şəxsi məlumatların daxil edilməsinə ehtiyac qalmır. İstifadəçi sadəcə POS terminala yaxınlaşır, telefon vasitəsilə QR kod yaradır, saniyələr içində ödənişi icra edir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son dövrlər ölkədə QR ödənişlər populyarlaşıb. Mərkəzi Bank və digər banklar da bu ödənişləri təşviq edirlər. Azərbaycan Mərkəzi Bankının (AMB) sədr müavini Vüsal Xəlilov bildirib ki, AMB QR ödənişlərin kiçik sahibkarlara daha sərfəli olması üçün assosiasiyalarla sıx iş aparır. Qurum rəsmisi vurğulayıb ki, xüsusilə regionlarda dövriyyəsi aşağı olan kiçik sahibkarlıq subyektləri üçün QR ödənişlər daha əlçatan və xərci aşağı ödəniş mexanizmi ola bilər. Bu baxımdan AMB QR ödənişlərin ölkə üzrə geniş tətbiqi və sahibkarlar üçün daha sərfəli olması istiqamətində həm maliyyə sektorunda, həm də qeyri-maliyyə sahəsində fəaliyyət göstərən assosiasiyalarla sıx işləyir. Maraqlıdır, QR ödənişlər niyə təşviq edilir, hansı üstünlükləri var?

### “BU, PLASTİK KARTDAN İSTİFADƏ ZƏRURƏTİNİ ARADAN QALDIRIR”

Azərbaycan Banklar Assosiasiyasının (ABA) “Ödəniş Sistemləri və Rəqəmsal Bankçılıq Ekspert Qrupu”nun üzvü Timur Drokin “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, QR ödənişlər sadə və təhlükəsiz olması ilə seçilir: “Bu üsul həm müştərilər, həm də bizneslər üçün rahat və müasir ödəniş forması təmin edir. Eyni zamanda, QR ödənişlər ekvayrinq bazarında özünəməxsus müştəri seqmentinə malikdir. Bu ödəniş üsulu sahibkarlardan əlavə xərclər və ya əlavə avadanlıq sifarişi tələb etmir, onlara satışları artırmaq və ödəniş mexanizmini tətbiq etmək baxımından daha açıq imkanlar yaradır. Ödəniş edən tərəf üçün üstünlük mobil telefon vasitəsilə əməliyyatı həyata keçirməkdədir. Bu, plastik kartdan istifadə zərurətini aradan qaldırır. AMB tərəfindən QR ödənişlərin vahid texniki standart və əməliyyat prinsipləri çərçivəsində tənzimlənməsi də bu istiqamətin inkişafı üçün əlverişli şərait yaradır və ödəniş mexanizmlərinin üçüncü tərəflərdən asılılığını azaldır”.




### “BANK BU ÖDƏNİŞ FORMASINI İQTİSADİ CƏHƏTDƏN MƏQSƏDƏUYĞUN HESAB EDİR”

ABA üzvü bildirir ki, Mərkəzi Bankın məqsədi ölkədə nağdsız ödəniş mühitini inkişaf etdirmək, rəqəmsal texnologiyaların tətbiqini sürətləndirmək və kölgə iqtisadiyyatının payını azaltmaqdır: “QR ödənişlərin təşviqi maliyyə xidmətlərinə çıxış imkanlarını genişləndirir, şəffaflığı artırır və rəqəmsal ekosistemin formalaşmasına şərait yaradır. QR ödənişlərin geniş tətbiqi maliyyə sektorunda texnoloji yeniliklərin artmasına, əməliyyatların daha çevik və səmərəli idarə olunmasına gətirib çıxarır. Banklar üçün bu, müştəri məmnuniyyətinin yüksəldilməsi, xidmətlərin maya dəyərinin azaldılması və rəqəmsal kanalların inkişafı deməkdir”.

### SADƏLİK VƏ ƏLÇATANLIQ

T.Drokin hesab edir ki, kiçik sahibkarlar üçün QR ödənişlərin əsas üstünlüyü sadəliyində və əlçatanlığındadır: “Onlar əlavə avadanlıq almadan, minimal xərclə müştərilərdən ödəniş qəbul edə bilirlər. Bu, biznesin əməliyyat xərclərini azaldır, eyni zamanda müştərilərə daha rahat və müasir xidmət təcrübəsi yaradır. Ödənişlərin rəqəmsal uçotu sahibkarlara maliyyə axınlarını şəffaf şəkildə izləməyə və biznesin inkişafı ilə bağlı qərarları daha dəqiq verməyə imkan yaradır”.

#### CƏLD VƏ TƏHLÜKƏSİZ ƏMƏLİYYATLAR

Bank eksperti Emin Kərimov deyir ki, QR sözü “Quick Response” ifadəsinin qısaltmasıdır və tərcüməsi də onun mahiyyətini əks etdirir. Yəni bu sistem daha cəld və təhlükəsiz əməliyyatların icrasına imkan yaradır: “Bu, təmassız ödəniş texnologiyasıdır. Həm dünyada, həm də ölkəmizdə getdikcə daha geniş yayılır. Bazarda bu sahənin inkişafına ciddi tələbat var. QR ödənişlərin əsas üstünlüklərindən biri odur ki, əməliyyat zamanı PIN-kod, kart məlumatı və digər şəxsi məlumatların daxil edilməsinə ehtiyac qalmır. İstifadəçi sadəcə POS terminala yaxınlaşıb, telefon vasitəsilə QR kodu yaradaraq saniyələr içində ödənişi icra edir. Bu proses zamanı nə OTP, nə də əlavə şəxsi məlumat tələb olunur. Məhz bu səbəbdən QR texnologiyalarının inkişaf etdirilməsi və təşviqi həm dünya üzrə, həm də ölkəmizdə prioritet istiqamətlərdən biridir”.



Timur Drokin

## “MALİYYƏ SEKTORU ÜÇÜN QR ÖDƏNİŞLƏRİN FAYDASI BÖYÜKDÜR”

Mütəxəssisin sözlərinə görə, maliyyə sektoru üçün də QR ödənişlərin faydası böyükdür: “Bu, yeni texnologiyaların tətbiqini stimullaşdırmaqla yanaşı, POS terminal şəbəkəsinin – xüsusilə də mobil POS həllərinin – inkişafına müsbət təsir göstərir. Eyni zamanda POS terminalların sifarişi, ölkəyə gətirilməsi və quraşdırılması ilə bağlı xərcləri əhəmiyyətli dərəcədə azaldır. Çünki bəzi sahibkarlar POS cihazlarının baha olmasını əsas gətirərək onlardan istifadəni gecikdirirdilər. Mobil və QR əsaslı POS-lar isə həm sərfəlidir, həm də iqtisadiyyatın şəffaflaşmasına, qeyri-rəsmi dövriyyənin azalmasına töhfə verir”.

Təhlükəsizliyə gəldikdə isə, E.Kərimov bildirir ki, QR ödənişlər etibarlıdır. Lakin digər sahələrdə olduğu kimi burada da müəyyən risklər mövcuddur: “Əsas risk saxta QR kodların yaradılması ilə bağlıdır. Xüsusilə sosial şəbəkələrdə saxta, hətta qumar və digər qanunsuz fəaliyyətləri təbliğ edən QR kodlara rast gəlinə bilər. Buna görə də istifadəçi QR kodun mənbəyini araşdırmadan ondan istifadə etməməlidir. Ümumilikdə, QR ödənişlərdə şəxsi məlumatlardan daha az istifadə olunduğuna görə təhlükəsizlik səviyyəsi yüksəkdir. Bu texnologiyaların inkişafı bank və fintek sektorunda yeni məhsulların yaranmasına müsbət təsir göstərir. Artıq metroda və ictimai nəqliyyatda QR ödənişlərin geniş tətbiqi əməliyyatların daha sürətli və təhlükəsiz şəkildə icra olunmasına imkan yaradır. Nağd ödəniş qəbul edən obyektlərdə də QR texnologiyaları nağdsız dövriyyənin artmasına şərait yaradır”.



Emin Kərimov

# NİYƏ O SİYAHILARDA YOXUQ?



Hər il dünyanın “ən ağıllı ölkələri”nin siyahıları açıqlanır. Davamlı olaraq bu siyahıda eyni ölkələr yer alır. Bəs Cənubi Qafqazda liderlik səviyyəsinə yüksələn Azərbaycanı yüksək texnoloji inkişafın lider ölkələri sırasına necə çıxara bilərik?



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Hər il dünya ölkələri elm və təhsil, xoşbəxtlik, innovasiya, turizm, harmoniya, təhlükəsizlik və s. meyarlar üzrə sıralanır. Liderlər tez-tez dəyişir, lakin Skandinaviya ölkələri, İsveçrə və Sinqapur xoşbəxtlik, sabitlik və innovasiyada, Fransa və İspaniya turizmdə, ABŞ, Çin, Yaponiya və Cənubi Koreya kimi ölkələr isə “ağıllılıqda” (təhsil/ÜDM/elm əsasında) liderliyi əldən vermirlər. Əksinə, bu rəqabət get-gedə güclənir. Budur, Yaponiya yenə də aparılan qlobal araşdırmada bir çox sahədə yüksək nəticələr göstərərək 100 mümkün baldan 92-ni toplayaraq ötən ilin nəticələrinə görə “dünyanın ən ağıllı ölkəsi” seçilib. Yaponiya bu uğuru həm Nobel mükafatlarının sayına, həm yüksək İQ dərəcəsinə, həm də şagirdlərin təhsil uğurlarına görə əldə edib. “Ağıllılar”ın ilk onluğunda İQ səviyyəsinə görə Sinqapur, Cənubi Koreya, Honkonq kimi Asiya ölkələri, keçmiş nailiyyətlərə və Nobel mükafatlarının sayına görə ABŞ, siyasi sabitliyi ilə İsveçrə, sosial layihələri və həyat keyfiyyəti ilə Çin, Kanada, Böyük Britaniya, Niderland, Belçika da var.

İstər-istəməz sual yaranır ki, Cənubi Qafqazda liderlik səviyyəsinə yüksələn Azərbaycanı yüksək texnoloji inkişafın lider ölkələri sırasına necə çıxara bilərik?



Qərib Mürşüdov

## “STRATEJİ YOL XƏRİTƏSİNƏ EHTİYAC VAR”

Mövzunu çox aktual və vacib hesab edən Kembric Universitetinin professoru Qərib Mürşüdovun fikrincə, belə siyahılara düşməyi məqsəd kimi görmək lazım deyil. Əksinə, əsas hədəf təməl infrastrukturun qurulması və sistemli dəyişikliklər olmalıdır. Yəni, təhsil, elm və innovasiya əsaslı sənayenin davamlı inkişafı üçün strateji yol xəritəsi hazırlamağa ehtiyac var: “Bu sahələrdə keyfiyyətli irəliləyiş və fərdlər üçün əlverişli mühit yaradılsa, beynəlxalq reytinqlərə daxil olmaq təbii nəticə kimi öz-özünə baş verəcək”.

Professorun sözlərinə görə, bu məqsədlə, dərhal həyata keçirilməsi zəruri olan üç əsas strateji istiqamət vacibdir. Onlardan birincisi bilik infrastrukturu, texniki ədəbiyyatın Ana dildə üstünlüyüdür: “Elm-texnika sahəsində orta, ali və peşə təhsili səviyyələri üçün beynəlxalq standartlara uyğun dərslik və materialların sistematik şəkildə Azərbaycan dilinə çevrilməsi lazımdır. Amma yalnız ədəbiyyatı əlçatan etmək kifayət deyil, onun istifadəsini də stimullaşdırmalıyıq. KİV-də elmi-populyar proqramların artırılması, görkəmli alim və mühəndislərin məktəblərlə davamlı əlaqəsinin qurulması, valideynlər arasında texniki təhsilin gələcək perspektivləri barədə maarifləndirmə işləri aparılması da vacibdir. Yüksək texnologiyalı sahələrdə yaxşı maaşlı işlərin çoxalması bu prosesi sürətləndirəcək”.

Alim hesab edir ki, keyfiyyətə doğru prosesdə müəllim potensialının artırılması da vacibdir: “Sistem öz-özünə işləmir. Onun əsas “mühərriki” müəllimlərdir. Müəllimlərin peşəkar hazırlığı, bilik səviyyəsi və müasir tədris metodlarına yiyələnməsi prioritet olmalıdır”.

Professor bildirir ki, texnologiyadan düzgün istifadə də önəmlidir: “Hazırkı keçid dövründə təhsildə süni intellekt kimi innovativ vasitələrdən köməkçi alət kimi istifadə etmək, həm təhsil keyfiyyətini yüksəldə, həm də “repetitorluq” kimi problemlərin həllinə kömək edə bilər”.



## “PROBLEM BEYİNDƏ DEYİL, MEXANİZMDƏDİR”

“Bəli, Yaponiya bu gün ən balanslı modeli göstərir. Nobel mükafatları təsadüf, İQ göstəriciləri isə təkcə genetik məsələ deyil, təhsildəki ardıcıllıq isə illərin nəticəsidir”, - deyə Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Günay Əkbərova vurğulayır.

Onun fikrincə, yaponlar sadəcə “ağıllı xalq” deyil, onların ağıllı sistemi olan ölkəsi də var: “Düzdür, bu gün biz müəyyən göstəricilərdə geridəyik. Amma bu, potensialın olmaması demək deyil. Əksinə, bizdə istifadə olunmayan potensial çoxdur. Yəni problem beyində deyil, mexanizmdədir. Birincisi, biz hələ də uğuru əzbərlə ölçürük. Testdən keçmək bacarığı ilə düşünmək bacarığını eyni şey zənn edirik. Siyahıya düşən ölkələr isə uşağa “düz cavabı tap” yox, “niyə belə düşündün?” sualını verir. Bizdə bu sual hələ dərsdə yox, bəzən adi həyatda da yoxdur”.

### ALTERNATİV YOL, YOXSA HÖRMƏTLİ KARYERA?

G.Əkbərova hesab edir ki, elmin prestij məsələsinə çevrilməsi də vacibdir: “Yaponiya və oxşar ölkələrdə alim olmaq alternativ yol deyil, hörmətli karyeradır. Bizdə isə istedadlı gənclər ya sistemdən bezir, ya da başqa sahəyə qaçır”.

G.Əkbərovanın fikrincə, bu prosesdə uzunmüddətli strategiya vacib amildir. Belə ki, Yaponiya nəticəni beş ilə yox, 25–30 ilə planlayır: “Biz isə tez-tez “bu il nə dəyişdi?” sualına ilişib qalırıq. Ağıllı ölkələr səbirlidir, çünki ağıllı proseslər vaxt istəyir”. İŞ üzvünün fikrincə, ölkəmizdə riyaziyyata meyilli uşaqlar, dilləri tez öyrənən gənclər, çətin şəraitdə belə çıxış yolu tapan zəka var. Sadəcə, bu zəkanı sistemli şəkildə üzə çıxaran mühit formalaşmalıdır: “Obrazlı desək, torpaq münbitdir, amma suvarma plansızdır. Düşünürəm ki, biz siyahıya düşmək üçün başqasına oxşamalı deyilik, öz güclü tərəflərimizi ağıllı şəkildə inkişaf etdirməliyik. Başlanğıc üçün tənqidi düşünmə, elmə hörmət, müəllimə dəyər, uzunmüddətli baxış kifayətdir. Yaponiya nümunəsində gördüyümüz əsas məqam odur ki, sistem mərkəzdən yazılan sənədlərlə yox, sahədə formalaşan mədəniyyətlə güclənir. Əgər bu gün biz Nobel siyahılarında yoxuqsa, bu o demək deyil ki, sabah da olmayacağıq. Sadəcə, Nobel birbaşa auditoriyadan, sinifdən, müəllim masasından başlayır”.



Günay Əkbərova

Foto: Rüfət Mikayılov /Global Media Group

# XƏZƏRİN DURUMU BALIQ BAZARINI SİLKƏLƏYİR



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Xəzər dənizinin çəkilməsi və çaylarda suyun azalması balıq ehtiyatlarının sürətlə tükənməsinə səbəb olub. Mütəxəssislərin fikrincə, xüsusilə çəkikimi və nərə cinsli balıqlar yox olmaq təhlükəsi ilə üz-üzədir. Bu proses artıq bazarda qiymətləri kəskin bahalaşdırıb və balığı "adi ərzaq" kateqoriyasından çıxarıb.**



"2025-ci ildə həm Xəzər dənizində, həm də daxili sularda ehtiyatların qiymətləndirilməsi işini elmi əsaslarla aparmağa çalışmışıq. Bu sahədə Türkiyədən olan elm adamları, eyni zamanda Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun əməkdaşları ilə birgə qiymətləndirmələr aparılıb". Bu sözləri Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev deyib. Onun sözlərinə görə, proses zamanı bəzi vacib məqamlar üzə çıxıb. Bəzi növ balıqların nəzarətsiz artması qeydə alınıb. Eyni zamanda bəzi balıqların, xüsusilə çəkikimilərin sayının azalması aşkarlanıb. Bəs Xəzərin çəkilməsi, çaylarda suyun azalması balıq bazarına necə təsir edir?

### "SON 5-10 İLDƏ BALIQ EHTİYATLARI BİR NEÇƏ DƏFƏ AZALIB"

"Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyinin İdarə Heyətinin sədri Zaur Salmanlının sözlərinə görə, Kür çayında və digər çaylarda sululuğun azalması keçici və yarımkeçici balıqlara təsir edir: "Hansı balıqlar ki, təbii kürü tökmək üçün kiçik və ya böyük miqrasiya edirlər, onların ehtiyatlarında ciddi azalma müşahidə ediləcək. Çünki çayların suyu balıqların miqrasiya edə bilməsi üçün önəmlidir. Xəzərin səviyyəsinin düşməsi onların çaylara keçməsində müəyyən çətinliklər yaradır. Artıq Xəzər qızıl balığı, nərə cinsli balıqların böyük miqrasiyasından danışa bilmirik. Çünki 1950-ci illərdən sonra bu balıqların miqrasiyası Kür çayı üzərində tikilmiş bəndlərin nəticəsində azalmağa başlamışdı. Hazırda isə bu balıqların təbii kürü tökməsi mövcud deyil".

Sədrin fikrincə, çəkikimilərin azalacağı bir neçə il öncədən bəlli idi: "Səbəblərdə iqlim və ya antropogen faktorları ayırmaq qeyri-mümkündür. 2-3 il öncədən biz bunu proqnoz etmişdik. Həmin dövrdə Kür çayının mənsəbində Salyan-Neftçala ərazisində dəniz suyu Kür çayına qarışmışdı. Hətta Şirvana qədər duzluluq artdı. Bu da Kür çayının mənsəbində kürüləyən çəkikimilərin həmin mövsümdə çox az və yaxud heç olmamasına səbəb oldu. Bu gün həmin prosesin nəticəsini görə bilirik. Son 5-10 ildə balıq ehtiyatları bir neçə dəfə azalıb. Xəzər qızıl balığı hazırda yoxa çıxmaq təhlükəsi ilə üz-üzədir. Nərə cinsli balıqlardan bölgə, belamur da təhlükədədir. Bu da bazara öz təsirini göstərir. Hazırda bazarlarda olan balıqlar ya idxal, ya da yetişdirilmədir".



Zaur Salmanlı

### "BALIQ ARTIQ BAHALI MƏHSULA ÇEVRİLİB"

Z.Salmanlı bildirdi ki, baş verən proseslərlə əlaqədar bütün balıq növlərində bahalaşma müşahidə ediləcək: "Balıq ehtiyatları azaldıqca artan istehlakı məcbur idxalla qarşılayacağıq. Çünki balıq yetişdirmə sahəsi də çətin vəziyyətdədir. 3-4 ildən sonra bəlkə bu sahə inkişaf edə bilər. Amma hazırda vəziyyət acınacaqlıdır. Balıq adi ərzaqdan bahalı məhsula çevrilib. Bahalaşma bütün növlərdə gözlənilir. Balığın ucuzlaşması üçün ehtiyatlar artırılmalıdır".

## "Qolların təmizlənməsi və qorunması vacibdir"

Azərbaycan Balıqçılar İttifaqı rəhbəri Əfqan Əliyev isə düşünür ki, balıqların azalmasına səbəb təkcə iqlim yox, həm də insan amilidir: "Ümumiyyətlə, Kür və Araz çaylarının suyunun azalması onlardan ayrılan qolların quruması səbəb olur. Bu da əsasən çəkikimilərə və müəyyən dərəcədə nərəkimi balıqların populyasiyasına mənfi təsir göstərir. Bunun üçün böyük su hövzələrindən ayrılan qolların mütəmadi olaraq təmizlənməsi və qorunması vacib amillərdəndir. "Çəkikimilərin azalmasının əsas səbəblərinin iqlim dəyişikliyinə bağlı olması ilə razı deyiləm. Çünki son 15 ildə müşayiət etdiyimiz və apardığımız monitorinqlər insan faktorunun da böyük rolunun olduğunu göstərib. Kənd Təsərrüfatı Nazirliyinin nəzdində yaradılan su hövzələri təhlükəsizliyi agentliyi sənaye balıqçılığında istifadə olunan alətlərə nəzarəti gücləndirməlidir ki, balıq ehtiyatlarının azalmasının qarşısı alınsın".

Ə.Əliyevin sözlərinə görə, təbii su hövzələrimizdə çəkikimilərin və digər balıqların azalması nəinki düşündürücü, hətta faciəvidir: "İki il öncə rəsmi qurum nümayəndələrindən biri bu rəqəmin 80 faiz üzərində olduğunu bildirmişdi. İndi bu göstərici daha da artıb və buna əsas olaraq balıq məhsullarının bugünkü qiymətlərini göstərmək olar. Bu isə alıcılıq imkanlarına da xeyli təsir göstərir".



Əfqan Əliyev

## "Xəzərin çəkilməsi ilə bərabər, qiymətlər də artacaq"



Foto: Rüfət Mikayılov / Global Media Group

Müsahibimiz artan bazar qiymətlərindən də bəhs etdi: "5-10 il bundan əvvələ nəzər salsaq görərik ki, Xəzər balıqlarının qiyməti 3-4 dəfə artıb. Artım əsasən kütüm, Xəzər sıfı, qızıl balıq və nərəkimilərdə müşahidə olunur. Çünki bu balıqların sürətlə azalması gedir. Balıq ehtiyatlarının azalması təkcə bazar qiymətlərinə deyil, insanların sağlamlığına da təsir edir. Xəzərin çəkilməsi prosesi dayanana qədər təbii su hövzələri balıqlarının qiymətlərində artım davam edə bilər. Qiymət artımının qarşısının alınması hələ ki idxaldan asılıdır. Balıq qıtlığının aradan qaldırılması üçün tədqiqatlar artıq dövlət səviyyəsində aparılır".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# "ADƏTƏN, İNSANLARLA QƏFİL AYRILIRAM..."

"Moskva göz yaşlarına inanmır" filminin Katerinası Vera Alentova tamaşaçıların yaddaşında əsasən elə bu obrazı ilə qaldı. O, 60 il teatrda çalışdı və ömrünün sonuna kimi sənətinə sadiq qaldı.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Moskva göz yaşlarına inanmır" filminin məşhur Katerinası - Rusiyanın Xalq artisti, Azərbaycan tamaşaçıları tərəfindən də tanınan Vera Valentinovna Alentovanın vəfatı xəbəri sənətsevərləri məyus edib. Aktrisa 83 yaşında sevənləri ilə vidalaşıb. O, 60 il Puşkin Teatrında çalışıb.

Vera Alentova əri Vladimir Menşovun rejissorluğu ilə çəkilən filmdəki Kateriana Tixomirovanın rolu ilə daha çox tanınır. Aktrisa ümumilikdə 30-dan çox film və televiziya serialında rol alıb.

**AKTRİSA OLMASAYDIM...**

"Anam mənim aktrisa olmağımı istəmirdi... Amma aktrisa olmasaydım, dünyanın ən bədbəxt insanı olardım, həvəsim olmayan bir işi seçərdim", - deyə məşhur aktrisa sənətinə sevgisini ifadə edirdi. 1960-cı illərin əvvəllərində Alentova Moskvaya köçür və 1965-ci ildə Moskva İncəsənət Teatr Məktəbində aktyor Vasili Markovun kursunu bitirir: "O vaxtlar biz tələbələrə eyni vaxtda təhsil almaq və aktyorluq etmək qadağan idi, institutdan xaric edilə bilərdik. Mən bunun ədalətsiz olduğunu hesab edirdim. Amma özümü ilk dəfə ekranda görəndə dəhşətə gəldim. Çəkiliş zamanı sərbəst hərəkət etdiyimi düşünürdüm, amma əslində kürəyimə sancaq bağlanmış kimi gəzirdim",- deyə aktrisa ilk çəkilişləri haqqında danışırdı.

**BİR SEVGİ HEKAYƏSİ**

Aktrisa bütün həyatını Bakıda anadan olan rejissor Vladimir Menşovla keçirib. Lakin onların ailə həyatı həmişə asan olmayıb. Vera Alentova ilə Vladimir Menşov aktyorluq təhsili alarkən Moskva İncəsənət Teatr Məktəbində tanış olublar. Onların dostluğu tez bir zamanda dərin sevgiyə çevrilib. "Adətən, insanlarla qəfil və əbədi olaraq ayrılıram. Amma qastrol səfərində olduğumuz zaman hər gün bir-birimizə məktub yazırdıq. Mən bu mesajları diqqətlə oxudum və özümü güclü, böyük bir sevgi atmosferinə qərq etdim. Qalan hər şey isə qəribə və əhəmiyyətsiz görünürdü - bu, həyatda ən qiymətli şeydir" - aktrisa xatırlayırdı.

Müəllimlər Vladimirin perspektivsiz olduğunu düşünərək Veraya onunla münasibət qurmaması barədə xəbərdarlıq edirlər. Vera isə onlardan fərqli olaraq dostunun uğuruna inanırdı: "Mən hələ Volodyaya aşiq deyildim. Biz yeni oxumağa, məşq etməyə və dostlaşmağa başlayırdıq", - deyə Vera Valentinovna danışıb: "Amma hətta o zaman da bu oğlanın həm səmimiyyətə, həm də güclü ruha malik olduğunu hiss edirdim".

# SON 20 RUBLLARINI TOYLARINA XƏRCLƏYİRLƏR

1962-ci ildə onlar evlənirlər və son 20 rubllarını tələbə yataqxanasındakı toylarına xərcləyirlər. Veranın gəlinlik paltarı yox idi. O, qarderobundakı ən yaxşı paltarını geyinir. Altı il sonra cütlüyün Yuliya adlı qızı doğulur. Onların hələ də öz evləri yox idi, amma sonra Alentova mənzil almağı bacarır. Onların gündəlik həyatı yaxşılaşır, lakin əri ilə şəxsi münasibətlərində münaqişə yaranır və bir müddət ayrılırlar. Vera özünü Moskvadakı Puşkin Teatrında, Vladimir isə Stavropol Teatrında tapır. Dörd ildən sonra yenidən bir araya gəlməyə qərar verirlər. 2012-ci ildə, 50 illik evlilik ildönümlərində Vera ilə Vladimir kilsədə evlənirlər.

Ər-arvad qızları Yuliya Menşovanın rejissorluq debütü olan "Sevgi. Məktublar"da tamaşasında səhnəyə də çıxırlar.

**DÜNYA MİQYASINDA ŞÖHRƏT VƏ TAMAŞAÇI SEVGİSİ**

Veranın "Moskva göz yaşlarına inanmır" filmindəki baş rolu ona dünya miqyasında şöhrət və milyonlarla sovet tamaşaçısının sevgisini qazandırır. 1978-ci ildə əri Menşov həm özünün, həm də Alentovanın həyatını dəyişdirəcək bir film çəkməyə başlayır. Əvvəlcə o, həyat yoldaşını Katerina Tixomirova roluna seçməyi planlaşdırmırdı: Menşov bu rolda o dövrün kino divalarından olan İrina Kupçenko və ya Marqarita Terexovanı təsəvvür edirdi.

Yekunda Alentova əslində özünü - təkbaşına uşaq böyüdən və uğur üçün çalışan bir qadını ustalıqla canlandıra bilir. Çəkiliş meydançasında ona heç bir güzəşt edilmirdi: Menşov həyat yoldaşına ən sərt tələblər qoyur, maksimum orijinallığa can atırdı. Daha sonra o, əri ilə işləməyin nə qədər çətin olduğunu danışırdı. "Çəkiliş meydançasında nəsə səhv gedəndə rejissor həmişə məni tənqid edirdi. Mən onun ədalətsiz iddialarına cavab verə bilmirdim, çünki bilirdim ki, bu, ər-arvad arasında mübahisəyə bənzəyir", - deyə aktrisa "Hər şey təsadüfi deyil" kitabında yazırdı.

**"OSKAR" VƏ 1 APREL ZARAFATI**

Filmin premyerası 1979-cu ilin qışında baş tutdu. Alentova xatırlayırdı: "Rusiyanın hər şəhərində kassada kilometrlərlə növbələr yaranırdı". İki il sonra film "Ən yaxşı xarici dil filmi" nominasiyasında "Oskar" mükafatına layiq görüldü. Xəbəri "Zaman" proqramında eşidən Menşov və Alentova əvvəlcə bunu 1 aprel zarafatı hesab edirlər...

Film ekranlara çıxandan sonra 85 milyon insan tərəfindən izlənildi və sovet kinosu tarixində ən çox izlənilən ikinci filmə çevrildi. Senzura zamanı "həddindən artıq açıq səhnələri" kəsmək istədilər, lakin ekran əsəri filmdən zövq alan ölkə rəhbəri Leonid Brejnev tərəfindən xilas edildi.

ABŞ Prezidenti Ronald Reyqan vaxtilə Mixail Qorbaçovla görüşündən əvvəl rus ruhunu daha yaxşı anlamaq üçün bu filmə səkkiz dəfə baxır.

2021-ci ildə Vladimir Menşov vəfat etdi. Bu, Vera Alentova üçün ağır zərbə oldu. "Yaxşı ki, həyatımda teatr var. Onsuz da biz onunla görüşəcəyik...", - deyə aktrisa təsəlli tapırdı...

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
10 YANVAR ŞƏNBƏ 2026

Mateuş Koxalski "Qarabağ"a gəldiyi ilk günlərdən etimadı doğrultmağı bacarıb. Polşalı çox qısa müddətdə əsas heyətin dəyişməz üzvünə çevrilib və sabit, etibarlı oyunu ilə seçilib.

# AZARKEŞLƏRİN SEVİMLİSİNƏ ÇEVRİLƏN QOLKİPER



Futbolda meydandakı bütün mövqe oyunçularının səhvi müəyyən mənada sığortalana bilər. Yeganə amplua qapıçıdır ki, onun etdiyi yanlışlıq komandanı dərhal çıxılmaz vəziyyətə salır. Çünki qolkiperdən geridə artıq heç kim yoxdur. Elə buna görə də "yaxşı qapıçı komandanın yarısıdır" ifadəsi futbol dünyasında təsadüfən yaranmayıb. Həmin "yaxşı qapıçılardan" biri isə artıq azərbaycanlı azarkeşlərə də kifayət qədər tanışdır. Söhbət "Qarabağ"ın polşalı qapıçısı Mateuş Koxalskidən gedir.

## "ATLILAR"IN QAPIÇI DƏRDİ

Azərbaycanı avrokuboklarda uğurla təmsil edən "Qarabağ" həmişə stabil və etibarlı qapıçıya sahib olmağa çalışıb. Ağdam təmsilçisi son illərdə uzun müddət bu mövqedə arzulanan səviyyədə davamlılıq tapa bilmirdi. Bu baxımdan İbrahim Şehiçi müəyyən mənada istisna hesab etmək olar. Lakin onun da həlledici məqamlarda yol verdiyi səhvlər az olmayıb.

Uzun illərdir komandanın formasını geyinən Şahruddin Məhəmmədəliyev barədə isə geniş danışmağa ehtiyac yoxdur. Azərbaycan millisinin də üzvü olan qapıçı çevik reaksiyası ilə seçilsə də, ayaqla oyunda yaşadığı çətinliklər "Qarabağ"ın geridən oyun qurmaq planlarına ciddi maneə yaradır. Hücumu başladarkən etdiyi səhvlər bir çox qarşılaşmada komandaya baha başa gəlib. Məhz bu səbəbdən klub qapı xəttindəki problemi əsasən müvəqqəti həll yolları ilə aradan qaldırmağa çalışıb. Asmir Beqoviç və Andrey Lunyovun icarəyə götürülməsi bunun bariz nümunəsidir.

Ötən yay isə "Qarabağ" bu mövqedə daha köklü dəyişikliklərə getdi və iki legioner qapıçı transfer etdi. Əvvəlcə Portuqaliya "Vizela"sından Fabiyan Buntiç heyətə qatıldı. Azarkeşlərin əksəriyyəti məhz onun əsas qolkiper olacağını düşünsə də, çox keçmədən daha bir transfer reallaşdı. Polşanın "Stal Myelets" klubundan 900 min avroya Mateuş Koxalski alındı. 2024-cü ildə ölkəsində ilin ən yaxşı qapıçısı seçilən qolkiperin "Qarabağ"a gəlişi azarkeşlər tərəfindən böyük məmnuniyyətlə qarşılandı.

## KİMDİR KOXALSKİ?

Mateuş 25 iyul 2000-ci ildə Polşanın Svidnik şəhərində anadan olub. Qolkiper karyerasına "Lublin" futbol akademiyasında başlayıb. 2015-ci ildən etibarən "Legiya" klubunun gənclərdən ibarət komandasında çıxış edən Koxalski bir il sonra Varşava təmsilçisinin U-19 kollektivinə cəlb olunub. 2017-ci ildə isə artıq klubun ikinci komandasında forma geyinməyə başlayıb.

Karyerası ərzində Polşada "Legiya" ilə yanaşı, "Leginoviya", "Radomyak Radom" və "Stal Myelets" klublarının qapısını qoruyan Mateuş əsas uğurlarını məhz "Stal Myelets"də qazanıb. 2023-2024 mövsümündə meydana çıxdığı 33 oyunun doqquzunda qapısını toxunulmaz saxlayan qolkiper ümumilikdə 111 qurtarışla yadda qalıb. Bu göstəricilər ona ölkəsində "Mövsümün qapıçısı" mükafatını qazandırıb.

## "QARABAĞ"DA YAXŞI BAŞLANĞIC

Mateuş Koxalski "Qarabağ"a gəldiyi ilk günlərdən etimadı doğrultmağı bacarıb. Polşalı çox qısa müddətdə əsas heyətin dəyişməz üzvünə çevrilib və sabit, etibarlı oyunu ilə seçilib. Onun ayaqla oyunu yüksək səviyyədədir ki, bu da "Qarabağ"ın geridən pasla oyun qurmağa əsaslanan sisteminə tam uyğundur. Koxalskinin müdafiəçilərlə qarşılıqlı anlaşma səviyyəsinin yüksək olması da meydanda özünü açıq şəkildə göstərir. Bütün bunların fonunda qapıçı baş məşqçinin də tam etimadını qazanıb.

Mövsümün geridə qalan hissəsində bütün turnirlərdə 20 oyunda meydana çıxan Koxalski altı qarşılaşmada qapısını toxunulmaz saxlayıb. Onun xüsusilə Çempionlar Liqasındakı performansı azarkeşlərin rəğbətini qazanmasına səbəb olub.

Polşalı qolkiper "Napoli" ilə qarşılaşmada etdiyi qurtarışlarla gündəmə gəlib. Həmin oyunda səkkiz seyvə imza atan və bir penalti zərbəsini dəf edən Koxalski matça damğa vurub. Bu möhtəşəm performansdan sonra 25 yaşlı qapıçı Çempionlar Liqasında həftənin rəmzi "11-liy"inə də seçilib.

## ARTIQ AVROPA KLUBLARININ MARAQ DAİRƏSİNƏ DÜŞÜB



Mateuş Koxalskinin "Qarabağ"dakı uğurlu çıxışı Polşada da diqqətdən kənarda qalmayıb. Təsadüfi deyil ki, bu performansdan sonra qolkiper ilk dəfə Polşa millisindən dəvət alıb. Bu fakt onun karyerasında növbəti vacib mərhələ olmaqla yanaşı, "Qarabağ" üçün də görülən işin doğru istiqamətdə getdiyini göstərir.

Koxalski artıq Avropanın aparıcı klublarının maraq dairəsinə düşüb. Mətbuatda onun adı "Napoli", "Borussiya Dortmund" və "Benfika" kimi klublarla hallanır. Məlumatlara görə, "Qarabağ" polşalı qapıçı üçün təxminən yeddi milyon avro tələb edir. Koxalskinin klubla müqaviləsi 2027-ci ilə qədər qüvvədədir və tərəflərin anlaşmanı daha bir il uzatmaq imkanı da mövcuddur.

İndiyə qədər nümayiş etdirdiyi performans Koxalskinin "Qarabağ" üçün qapı xəttində uzunmüddətli və etibarlı həll ola biləcəyini deməyə əsas verir. Bununla yanaşı, futbolun biznes olduğunu da unutmamaq lazımdır. Əgər "Qarabağ" futbolçunun satışından ciddi maliyyə gəliri əldə edə biləcəksə, bu addımı atmaq klub üçün tam məntiqli görünür. Belə bir transferin reallaşması Azərbaycan futbolu tarixində yeni rekord ola bilər.